www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-22 iyul 2019-cu il Şənbə № 152 (7322) Qiymıəti 60 qəpik

**Xəbər**

## Pirşağıda faciə: evin tək oğlu dənizdə batdı

yazısı səh.14-də

**Gündəm**

### ABŞ-ın İrəvana dəstəyinin 2 şərti var: biri Qarabağ



Vaşinqton Ermənistanı Rusiyadan uzaqlaşdırmağa çalışır, ekspert isə deyir ki...

yazısı səh.12-də

### Bu gündən paytaxtda sarı zolaq qadağası qüvvəyə minir

yazısı səh.3-də

### Şagirdin ölümünə görə keçmiş məktəb direktoru hakim qarşısında

yazısı səh.2-də

### Nazirlikdən "Yeni Müsavat"ın yazdıqlarına reaksiya gəldi

yazısı səh.14-də

### İrəvanın Bakıya qarşı "ikili oyunu" - düşmənin məkrli hədəfi

yazısı səh.11-də

### Türkiyənin NATO ilə yolları ayrılacaqmı - ekspertlərdən maraqlı şərhlər

yazısı səh.7-də

### Xəzərin hasar problemi nə vaxt çözüləcək?

yazısı səh.13-də

### DİM qəbul imtahanlarının nəticələrini açıqladı

yazısı səh.10-da

### Gürcüstanın azərbaycanlı deputatı Tiflisdəki son durumu şərh etdi

yazısı səh.12-də

### Nazirlikdən fermerlərə mühüm təklif

yazısı səh.13-də

### Face App: istifadəçilərin təlaşına əsas var

yazısı səh.5-də

# ERMƏNİSTAN ƏKS-İNQİLAB ASTANASINDA - PAŞİNYAN ONU İQTİDAR ETMİŞ XALQI HƏDƏLƏDİ

Hökumət qüvvələri ilə toqquşmada ilk dəfə qan töküldü; **erməni baş nazirdən narazı kütləyə təhdid:** "Güc tətbiq edəcəyik!.."; **erməni mediası:** "İnqilabçılar etirazçılara çevrilir..."



yazısı səh.8-də

# İraq həbsxanasında qalan azərbaycanlı uşaqların acınacaqlı taleyi

SOS: bu ölkədə ən çox vətəndaşı həbs edilən Azərbaycandır; **XİN:** "20 azyaşlı ölkəmizə qaytarılıb, bu yöndə işlər davam etdirilir..."

yazısı səh.5-də



*Qulu Məhərrəmli:*

**"Efir adamları ölkə üçün həssas mövzulara ehtiyatla yanaşmalıdır"**

yazısı səh.14-də



*Elza Seyidcahan:*

**"İnşallah, mən də deputat olaram..."**

yazısı səh.10-da



*Qabil Hüseynli:*

**"Türkiyə və Rusiya tarix boyu müttəfiq olmayıb"**

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019



## İrandan Azərbaycana narkotik keçirmək istəyənlər tutuldu

**Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində əməliyyat-axtarış tədbirlərini davam etdirir.**

DSX-nın mətbuat mərkəzindən bildirilib ki, iyulun 5-də "Xaş-xaş 2019" şərti ad altında keçirilən kompleks tədbirlər nəticəsində Lerik rayonunun Kömürköy ərazisində 15 hektar sahədən ümumi çəkisi 2 ton 680 kq olan xaş-xaş kolu, Ağstafa rayonu Qarayazı ərazisindən isə 1 hektar sahədən 2 ton 376 kq olan çətənə kolları aşkar olunaraq Daxili İşlər Nazirliyinin yerli rayon şöbələrinin və icra nümayəndələrinin iştirakı ilə yığılaraq müvafiq qaydada yandırılma yolu ilə məhv edilib.

İyulun 5-də Yardımlı rayonu Arvana kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İrandan Azərbaycan Respublikası istiqamətində qaçaqmalçılar tərəfindən dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Nəticədə sərhəd pozucuları polietilen paketdə qablaşdırılan 935 qram marixuana və 1025 qram heroini hadisə yerində ataraq geri İran ərazisinə qaçıblar. İyulun 8-də "Astara" sərhəd nəzarəti məntəqəsində, İrandan Azərbaycan Respublikasına gələn İran vətəndaşları 1994-cü il təvəllüdlü Davamihur Peiman Xeirollah oğlu, 1987-ci il təvəllüdlü Abarimejdar Hossein Ayatali oğlu və 1986-cı il təvəllüdlü Hemmati Mejdar Reza Nabiali oğlunun üzərinə sərhəd və gömrük baxış keçirilərkən, üstlərindən və daxili orqanlarından ümumilikdə 111 qram heroin, 10 qram metafitamin, psixotrop dərman olan 10 həb "Metadon", 10 həb "Tramadol" aşkar olunaraq götürülüb. İyulun 15-də "Astara" sərhəd nəzarəti məntəqəsində, İrandan Azərbaycan Respublikasına keçərkən Lənkəran rayon sakinləri-1992-ci il təvəllüdlü Səfərli Məhəmməd Mahir oğlunun və 1989-cu il təvəllüdlü Ağabalayev Elxan Bəşir oğlunun üzərinə baxış keçirilərkən, onlardan birinin üstündən 6 qram, digərinin üstündən 7 qram narkotik vasitə olan heroin aşkar olunub. Hər üç fakt üzrə Dövlət Sərhəd Xidməti tərəfindən əməliyyat istintaq tədbirləri davam etdirilir.

# Nazirlikdən mühüm "Keşikçidağ" açıqlaması



**"Keşikçidağ" mağara-məbədlər kompleksi Azərbaycanın dövlət tarix-mədəniyyət qoruğudur. Bunu Mədəniyyət Nazirliyindən bildiriblər. Qeyd olunub ki, kompleks Azərbaycanla Gürcüstan sərhəd zolağı boyunca 25 km-dək uzanaraq böyük bir ərazini əhatə edir:**

"Ağstafa rayonunun mərkəzindən 75 km məsafədə, sonuncu yaşayış məntəqəsindən 28 km şimal-şərq istiqamətində yerləşir. Mağaralar kompleksi dəniz səviyyəsindən 750-950 metr hündürlükdə dağların cənub və cənub-şərq tərəfindəki sıldırım qayalıqları əhatə edir. Qoruq ərazisində 70-ə qədər, yaşı iki min ilə gedib çıxan təbii və süni mağaralar var. Mağaralar kompleksində Qafqaz Albaniyası zamanı keçilməz qayalıqlarda inşa edilmiş 11 metr hündürlüyündə üçmərtəbəli qala, bir-birindən 1500 metr aralıda yerləşən və yerli daş materiallardan inşa olunmuş iki alban məbədi, tarixi atəşpərəstlik çağının yadigarı olan yerli əhali arasında suyu şəfaverici bulaq kimi istifadə edilən "Qüdrət bulağı" adlı inanc yeri var. Mağaralardan 3 km cənubda Son Tunc-Erkən Dəmir dövrünə aid 100-ə yaxın kurqan aşkarlanıb.

Prezident İlham Əliyevin 19 dekabr 2007-ci il tarixli sərəncamı ilə Ağstafa rayonunun ərazisində Keşikçidağ silsiləsinin bir hissəsini əhatə edən mağaralar kompleksi Azərbaycan Respublikasının "Keşikçidağ" dövlət tarix-mədəniyyət qoruğu elan edilib. Keşikçidağ mağara-məbədlər kompleksi qoruq kimi fəaliyyətə başladığı ilk gündən Mədəniyyət Nazirliyi elmi araşdırmaların aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya, Memarlıq və İncəsənət, Tarix institutları ilə əməkdaşlıq edir".

**Nazirlikdən o da bildirilib ki, qoruğun tanıdılması və ziyarətçilərin rahatlığını təmin etmək məqsədi ilə bir sıra işlər həyata keçirilib:** "Turistlərin qoruğa gedişini asanlaşdırmaq məqsədi ilə yol istiqamət nişanları basdırılıb, abidə haqqında qısa məlumatlar olan yeni lövhələr qoyulub. "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu haqqında "Qədim yurdun daş kitabəsi" adlı sənədli film çəkilib. Bundan əlavə 2018-ci ildə "Virtual Keşikçidağ" adlı panoramik turun çəkilişləri istifadəyə verilərək qoruğun veb saytında yerləşdirilib".

## Şagirdin ölümünə görə keçmiş məktəb direktoru hakim qarşısında - həbsi tələb edilir

**Məktəbli Elinanın ölümünə görə məktəb direktoru yenidən hakim önünə çıxarılıb. Musavat.com xəbər verir ki, 162 saylı orta məktəbin keçmiş direktoru Sevin Abbasova məhkəməyə gətirilib. Onun barəsində həbs-qətimkan tədbiri seçilməsi üçün mərhumun anası və vəkilləri Bakı Apelyasiya Məhkəməsinə müraciət edib.**

Məhkəmə müddət keçdiyi üçün zərərçəkmiş tərəfin vəsatətini təmin etməyib. Belə ki, Sevin Abbasova barəsində polis nəzarətinə verilmə qətimkan tədbirinin 2 ay da uzadılması ilə bağlı qərar iyulun 9-da verilib. Zərərçəkmiş tərəf bundan 3 gün ərzində şikayət verə bilərdi.

Elinanın ailə üzvlərinin vəkilləri bildirib ki, qərarın surəti gec alındığı üçün apelyasiya şikayəti vaxtında verilməyib. Vəkillər müddətin bərpası üçün məhkəməyə müraciət edib.

Xatırladaq ki, məhkəmənin qərarı ilə Sevin Abbasova barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib və o, ev dustaqlığındadır. Məktəbdə intihar edən 8-ci sinif şagirdi Elina Hacıyevanın ölümü ilə bağlı məktəbin direktoru Sevinc Abbasova cinayət məsuliyyətinə cəlb edilib. O, Cinayət Məcəlləsinin 143-cü (Təhlükədə qoyma) və 314.2-ci (Səhlənkarlıq; zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb.

**İlkin MURADOV,
Musavat.com**

## Telefonlar niyə partlayır?

**Mobil telefonlar həyatımızın ayrılmaz parçasına, hətta ən yaxın köməkçimizə çevrilib. Müasir dövrdə "ağıllı" telefonlar vasitəsilə biz istədiyimiz işləri çox rahatlıqla və qısa zamanda həll edə bilirik. Lakin bəzən arzu olunmayan hallar da yaşana bilər. Son dövrlər "ağıllı" telefonların öz-özündən alışıb yanması halları yaşanır.**

Məsələ ilə bağlı Axar.az-a danışan telefon mütəxəssisi Elvin Ələkbərov partlamanın əsasən qısaqapanmadan yarandığını bildirib.

"Telefon partlamasının əsas səbəbi batareyalarda yaranan qısaqapanmadır. Ancaq partlayış və yanğınlar təkcə qısaqapanma və batareyaların keyfiyyətsiz olması səbəbindən baş vermir. Statistik məlumatlara görə, facia ilə nəticələnən hadisələrin çoxunda bəzən telefon sahiblərinin səhlənkarlığı da böyük rol oynayır. Belə ki, telefonun enerji yığmaq üçün elektrikdə çox qalması da xoşagəlməz hadisələrlə nəticələnə bilər. Çünki səhərə qədər enerjidə qalan telefonların batareyası şişir və quruyur. Şişən batareya isə tez partlayır. Digər bir səbəb isə telefonların suya düşməsi, yaxud üzərinə tez-tez maye tökülməsidir", - mütəxəssis deyib.

Elvin usta telefonların enerjidə optimal saxlanma müddətini də qeyd edib: "Mobil telefon adətən iki saat enerjidə qalmalıdır. Telefonu söndürüb, enerjiyə qoymaq daha məsləhətlidir. Çünki belə halda telefon həm tez enerji yığır, həm də ömrü uzun olur. Həmçinin, çalışmaq lazımdır ki, telefonun öz orijinal adapterindən istifadə olunsun. Çünki saxta adapterlər telefonun batareyasını sıradan çıxarır və qurumasına səbəb olur. Quruyan batareya isə çox təhlükəlidir".

**Elvin usta sonda onu da qeyd edib ki, bütün telefonlarda partlama halları yaşana bilər.**

## Xəzərdə 19 yaşlı gənc boğuldu

**Xəzər dənizində, qeyri-çimərlik ərazidə bir nəfər çimərkən boğulub. Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhərinin Sabunçu rayonunda dənizdə, qeyri-çimərlik ərazidə bir nəfərin çimərkən batması barədə məlumat daxil olub.**

Hadisə yerinə cəlb olunan Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin müvafiq xilasetmə qüvvələri 2000-ci il təvəllüdlü Abbasov Sadiq Vüqar oğlunun meyitini sudan çıxararaq aidiyyəti üzrə təhvil veriblər.




## BDU dünyanın 1000 nüfuzlu universiteti siyahısına daxil edilib

**Bakı Dövlət Universiteti (BDU) dünya universitetlərinin reytinqini müəyyənləşdirən "QS World University Rankings" beynəlxalq reytinq agentliyinin siyahısında yer tutub.**

Universitetdən APA-ya verilən məlumata görə, "QS World University Rankings 2020"nin açıqlamasında BDU dünyanın 20 min top universitetini araşdıran bu şirkətin siyahıya daxil etdiyi 1000 nüfuzlu universitet arasından seçilərək 801+ yerdə qərarlaşıb. BDU ötən il olduğu kimi, Azərbaycandan siyahıya düşən yeganə universitet olub.

Universitet reytinqinin tərtib olunmasında akademik göstəricilər, professor-müəllim heyətinin tələbələrin sayına nisbəti, işəgötürənlər arasında nüfuzu, sitat gətirilmə indeksi, həmçinin xarici müəllim və tələbələrin sayı nəzərə alınır.

Qeyd edək ki, Bakı Dövlət Universiteti ötən il "Webometrics", "Round University Ranking", "U-Multirank", "Scimago İnstitutions Ranking" və "QS World University Rankings" agentliyinin Şərqi Avropa və Mərkəzi Asiyanın İnkişaf etməkdə olan ölkələrinin reytinq agentliklərinin siyahısında da yer tutmuşdu.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019

# Bu gündən Bakıda sarı zolaq qadağası qüvvəyə minir

**Ötən gecədən etibarən “Baku 2019" - Avropa Gənclər Yay Olimpiya Festivalı ilə əlaqədar olaraq paytaxtın bəzi küçə və prospektlərində sarı zolaq qadağası qüvvəyə minib.**

BAKU.WS xəbər verir ki, bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov bildirib. “Qadağa iyulun 20-si gecə saat 00:00-da başlayacaq və 28-i gecə 24:00-dək davam edəcək. Bu müddət ərzində yollardakı sarı zolaqlarda yalnız xüsusi nəqliyyat vasitələrinin hərəkətinə icazə veriləcək. Sarı zolaqlar üzrə digər avtomobillərin hərəkəti avtomobil sahibləri və sürücülərin inzibati məsuliyyətə cəlb edilməsinə hüquqi zəmin yaradacaq. Bu zolaqlar üzərində hərəkətin qadağan olduğunu bildirən yol nişanları da qoyulub. Bununla bağlı yetərincə təbliğat aparılıb. Burada söhbət sürücülərin cərimələnməsindən getmir. Biz bununla ”Baku 2019" Avropa Gənclər Yay Olimpiya Festivalının mahiyyətini sürücülərə çatdırmaq istəyirik", - V.Əsədov bildirib.




V.Əsədov qadağa qüvvədə olduğu müddətdə sürücüləri sarı zolaqlar üzrə hərəkət etməməyə çağırıb: “Biz sürücülərdən Bakıda süni sıxlığın və tıxacların yaranmaması üçün ictimai nəqliyyatdan istifadəyə üstünlük vermələrini xahiş edirik. Onlara Sarı zolaqlar üzrə Təşkilat Komitəsi tərəfindən xüsusi tanınma nişanları (avtomobilin ön və arxa şüşəsi üzərində xüsusi emblem) olan avtomobillərin hərəkətinə şərait yaratmalarını tövsiyyə edirik. Bundan əvvəlki dövrlərdə Bakıda keçirilmiş idman tədbirləri zamanı Bakı yollarına sarı rəngli zolaqların tətbiq edilməsinin müsbət nəticələrini nəzərə alaraq, diqqətə çatdırırıq ki, sürücülər festival iştirakçılarının tədbir yerləri istiqamətində bu zolaqlar üzrə təhlükəsiz hərəkəti üçün şərait yaratmalıdırlar”.

İdarə rəsmisi vurğulayıb ki, həmin günlərdə paytaxt küçələrində gücləndirilmiş iş rejimində çalışan yol polisləri hər bir sürücünün mənzil başına çatmasını təmin edəcək.

**Qeyd edək ki, “Baku 2019" Avropa Gənclər Yay Olimpiya Festivalının Bakıda keçirilməsi ilə əlaqədar olaraq paytaxtın ”Ziya Bünyadov", “Q.Qarayev”, “Neftçilər”, “Atatürk”, “H.Ələsgərova”, “Azadlıq”, “Z.Əliyeva, ”Tiblisi, “Moskva”, “Ü.Hacıbəyov”, R.İsmaylov və s. küçə və prospektlərində çəkilmiş sarı rəngli və xüsusi işarəli avtomobil zolaqları kameralar vasitəsilə tam nəzarətə götürülüb.**

# ABŞ Konqresi Türkiyəyə qarşı hərəkətə keçir

**Xəbər verdiyimiz kimi, ABŞ Müdafiə Nazirliyi Türkiyənin F-35 döyüş təyyarələri proqramında iştirakını dayandırıb. Pentaqon bu qərarı Rusiyadan S-400 zenit-raket kompleksi alması ilə əsaslandırıb. ABŞ Müdafiə Nazirliyinin Satınalma və Təmir İşləri üzrə rəsmisi Ellen Lord bildirib ki, bu qərar “geridönməz” deyil, əgər Ankara S-400 mövzusunda mövqeyini dəyişdirərsə, yenidən proqrama qatılması müzakirə oluna bilər.**

Eyni zamanda, o hazırda ABŞ-da olan və F-35 təlimlərində iştirak edən Türkiyə hərbi pilotlarının geri göndərilmə mərhələsində olduğunu deyib.

Bu qərar hazırda Qərb mediasında ciddi müzakirə mövzusuna çevrilib. Britaniyanın “Times” qəzeti yazıb ki, Türkiyənin S-400 HHM sistemləri alması Ankaranın NATO üzvlüyünü təhlükəyə ata bilər. Qəzet yazır ki, NATO hərəkətə keçməli, ancaq strateji əhəmiyyət kəsb edən ölkə olaraq Türkiyə ilə münasibətlərin pozulmaması üçün diqqətli addımlar atılması lazım olduğunu da əlavə edib.

Qeyd edək ki, Türkiyə F-35 layihəsinin üzvüdür. Bu səbəbdən də Ankaranın layihədən çıxarılması 9 milyardlıq ziyana səbəb ola bilər. Lakin Qərb mənbələri Trampın Yaponiya səfəri zamanı bu ölkəyə Türkiyənin alacağı sayda,



## Tramp qanunvericilərə müqavimət göstərə biləcəkmi?

yəni 100-ə yaxın F-35 satılması ilə bağlı müqavilə imzalanıb. Mütəxəssislər hesab edirlər ki, Türkiyənin proqramdan çıxmasından yarana biləcək zərərləri Yaponiyaya satışla aradan qaldırmaq mümkün olacaq. Ümumilikdə isə Türkiyənin proqramdan çıxması Vaşinqtona 500-600 milyon dollar dəyərində zərər vuracaq.

Türkiyənin Müdafiə naziri Hulusi Akar isə deyib ki, Türkiyənin F-35 proqramından çıxarılması NATO-nun gücünə, xüsusilə də cənub qanadına mənfi təsir göstərəcək. Nazir deyib ki, Türkiyənin qeyri-bərabər və ədalətsiz olan bir qərarla layihə və işgüzar əlaqələrdən kənarlaşdırılması qanunsuz səbəblərə söykənir.

Ancaq ən maraqlı açıqlama ABŞ prezidenti Trampdan gəlib. Donald Tramp deyib ki, S-400 mövzusu ilə bağlı Türkiyəyə sanksiya tətbiq olunması haqqında düşünmür.

Xatırladaq ki, bu həftənin əvvəlində prezident Tramp Türkiyənin Rusiyadan S-400-ləri almasına münasibət bildirib. ABŞ prezidenti deyib ki, S-400-lərə rəğmən Türkiyə ilə münasibətlər yaxşıdır. Eyni zamanda, Tramp Türkiyəyə “Patriot” sistemlərinin satılmamasına görə əvvəlki kabineti ittiham edib, dolayısı ilə bu problemlərə görə Obama administrasiyasını günahlandırıb.

Ötən gün məlum olub ki, ABŞ Konqresinin iki respublikaçı senatoru Rik Skott və Todd Yunq Senata Türkiyəyə embarqo təklif edən qanun layihəsi təqdim edib. “Reuters”in əldə etdiyi qanun layihəsində Türkiyənin S-400 alması “ABŞ-ın təhlükəsizlik hüququna birbaşa və böyük təhdid” olaraq qeyd olunub. Bu qərar Senatda təsdiqlənərsə, o zaman Türkiyəyə qarşı “ABŞ-ın rəqibləri ilə sanksiyalarla mübarizə qanunu” (CAATSA) çərçivəsində sanksiyaların tamamən tətbiq olunması gündəmə gələ bilər. Respublikaçı senator bundan başqa Tramp administrasiyasına “Rusiyanın yaratdığı təhdidin dəyərləndirilməsi və Türkiyənin daimi NATO üzvlüyünün gözdən keçirilməsi üçün NATO sammiti çağırmasını” təklif edir.

BBC-nin məlumatına görə, ABŞ Senatının xarici əlaqələr komitəsinin demokrat üzvü Bob Memendez də bu layihəni dəstəkləyib. Memnendez Türkiyənin F-35 layihəsindən çıxarılmasının yetərli olmadığını bildirib. Senator deyib ki, Tramp CAATSA qanunu rədd edərsə, Türkiyəyə qarşı ABŞ hökumətinin sanksiya tətbiq etməsi üçün yeni qanun layihəsi hazırlayacaq.

Medianın ehtimalına görə, bu baş verərsə, Tramp üzərində ciddi təzyiq yarana bilər. Bundan başqa respublikaçı senator Skottun təklifində prezident Ərdoğan ölkəni avtoritarizmə sürükləmək, insan haqlarını tapdamaqda ittiham olunur. Eyni zamanda Türkiyənin radikal islamçı militanlarla eyni cərgədə dayanaraq ABŞ-ın müttəfiqi İsraili təhrik etdiyi qeyd olunur.

Qeyd edək ki, 2017-ci ildə o zaman sağ olan senator Con Makkeyn prezident Trampa müraciət edərək ABŞ-ın “Rəqiblərlə sanksiyalar vasitəsilə mübarizə” Qanunu çərçivəsində Türkiyəyə qarşı sanksiyalar tətbiq olunmasını istəyib. “ABŞ-ın rəqibləri ilə sanksiyalarla mübarizə qanunu” (CAATSA) 2017-ci ildə qəbul olunub və bu günə qədər Rusiya, İran, Şimali Koreya kimi ölkələrə qarşı sanksiya qəbul olunmasında istifadə edilib. Bundan başqa ötən il CAATSA çərçivəsində bir Çin şirkətinə də sanksiya tətbiq olunub.

Türkiyə 2017-ci ildə Rusiya ilə əldə olunmuş razılaşmaya əsasən bu ölkədən 4 ədəd S-400 HHM batareyası alacaq. Layihənin dəyəri 2,5 milyard dollardır. Artıq ötən həftənin cümə günündən etibarən Rusiyadan S-400 hissələri Türkiyəyə daşınmağa başlayıb. Zenit qurğuların texniki hissələri təyyarələrlə daşınıb, raketlər isə dəniz vasitəsilə Türkiyəyə gətiriləcək. Ancaq bu hadisə Qərbdə, xüsusən də Türkiyənin NATO müttəfiqi ABŞ-da ciddi narazılıq doğurub. Vaşinqton S-400-lərin NATO hava hücumundan müdafiə sisteminə inteqrasiya olmadığı, həmçinin yeni nəsil F-35 qırıcılarının texniki xarakteristikasını oğurlaya biləcəyini əsas gətirərək Ankaranı bu qərardan çəkindirməyə çalışıb. İndi isə artıq F-35-lərin satışını dayandırıb. Türkiyə isə 2002-ci ildən F-35 layihəsinin üzvüdür. Anlaşmaya əsasən 9 milyard dollar qarşılığında Ankara 100-dən artıq F-35 təyyarəsi alacaq.

**Son günlərə qədər hiss olunurdu ki, Türkiyə rəhbərliyi bu məsələdə Trampla danışıb və ABŞ prezidentini razı sala bilib. Ancaq indi görünür ki, Konqres daha sərt mövqe nümayiş etdirir və Trampı hüquqi yollarla Türkiyəyə təzyiqə vadar etməyə çalışır. Bu isə Ankara-Vaşinqton əlaqələrini daha da gərə bilər. Bu mənada indi hər şey Trampın Konqresə müqavimət gücündən asılı olacaq.**

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

# XİN başçısı: "Fransa Qarabağ münaqişəsinin həlli üçün səylərini daha da gücləndirir"



**"Fransa Dağlıq Qarabağ münaqişəsinin həlli üçün səylərini daha da gücləndirir". Report-un yerli bürosu xəbər verir ki, bunu Fransanın xarici işlər naziri Jan-İv Lö Drianın Fransada Azərbaycanın Dostları Assosiasiyasının (FADA) prezidenti Fransua Manselin ölkə başçısı Emmanuel Makrona ünvanladığı məktuba cavab olaraq bildirib.**

XİN başçısı cavab məktubunda qeyd edib ki, prezident Emmanuel Makronun ötən il aprelin 5-də vurğuladığı kimi, Fransa Dağlıq Qarabağ münaqişənin həllində xüsusi məsuliyyət daşıyır: "Fransa ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olaraq ABŞ və Rusiya ilə birgə Dağlıq Qarabağ münaqişəsinin həllində balanslı və ədalətli şəkildə vasitəçilik edir".

Xarici işlər naziri qətiyyətlə bəyan edib ki, Fransanın Dağlıq Qarabağdakı separatçı rejimlə heç bir əlaqəsi yoxdur: "Bu da fəaliyyətimizin ədalətli olması, həmçinin beynəlxalq hüquq qarşısında daşıdığımız öhdəliklərimizdən irəli gəlir. Bu səbəbdən Fransanın yerli idarəetmə orqanlarının da bu məsələ ilə bağlı addımlarının qanunauyğun şəkildə qurulmasını təmin etmək məqsədilə vəziyyəti nəzarətə götürmüşük".

Onun sözlərinə görə, Fransa həm Azərbaycanın, həm də Ermənistanın dostu olmaqla Dağlıq Qarabağ münaqişəsinin tezliklə və danışıqlar yolu ilə həlli üçün vasitəçiliyini davam etdirir və səylərini daha da gücləndirir: "ATƏT-in Minsk Qrupunun fransalı həmsədri, səfir Stefani Viskonti vəzifəsi üzərində çox yaxından çalışır. O, rusiyalı və amerikalı həmkarları ilə birgə tez-tez regionda, Dağlıq Qarbağda olur, vəziyyətin gedişatını yaxından öyrənir, əhali ilə danışıqlar aparır. Fransa prezidenti və hökuməti vaxtlı-vaxtında onun səfərləri və nəticələri barədə məlumatlandırılır".

Qeyd edək ki, Fransada Azərbaycanın Dostları Assosiasiyasının (FADA) prezidenti Fransua Mansel prezident Emmanuel Makrona yazdığı məktubda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı narahatlığını bildirmiş və 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində baş vermiş soyqırıma diqqət ayırmağı tövsiyə etmişdi.



# Britaniyada 8 evi olan xarici mafioza qarşı "Zamirə qanunu" tətbiq edildi

**Britaniya polisi iyulun 18-də bəyan edib ki, silahlı soyğunçuluq və narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan bandalarla əlaqələrdə şübhəli bilinən xarici biznesmenin əmlakının dondurulmasına qərar verilib.**

Virtualaz.org xəbər verir ki, həmin biznesmenin adı açıqlanmır. Cinayətkarlıqla mübarizə üzrə Milli Agentliyin bəyanatında deyilir ki, həmin biznesmen barəsində İzahedilməz Sərvətlər Qanunu (UWO) çərçivəsində sorğu alıb. Həmin sorğuya əsasən biznesmen 12.5 milyon dollar dəyərində daşınmaz əmlak imperiyasının mənbəyini açıqlamalıdır. Çünki pulların cinayət yolu ilə əldə edildiyi haqda şübhələr var.

Aktivlərin dondurulması haqda sorğu o deməkdir ki, həmin biznesmenin Böyük Britaniya boyu əldə etdiyi daşınmaz əmlak obyektləri polisin araşdırmasının başa çatdırılmasına qədər satıla və başqasına verilə bilməz.

"Reuters" agentliyi qeyd edir ki, UWO əsasən korrupsiyaya bulaşmış xarici məmurlar və onların ailə üzvlərinin Britaniyada əldə etdikləri sərvətin mənbəyini açıqlamağa məcbur etmək üçün qəbul edilib. Məqsəd Böyük Britaniyaya çirkli pulların axınını dayandırmaqdır. Həmin qanun ötən il ilk dəfə Azərbaycan Beynəlxalq Bankının keçmiş rəhbəri Cahangir Hacıyevin arvadı Zamirə Hacəyevaya qarşı tətbiq olunub. Onun on milyonlarla funt dəyərində aktivlərinə həbs qoyulub. Hazırda Londonda Z.Hacıyevanın Azərbaycana ekstradisiyası ilə bağlı məhkəmə prosesi keçirilir.

"Bu sorğular Böyük Britaniya daxilində dövr edən və ölkəyə xaricdən daxil olan qanunsuz maliyyənin mənbəyini araşdırmaq üçün güclü alətdir",-Cinayətkarlıqla mübarizə üzrə Milli Agentliyin (NCA) bölmə rəhbəri Endi Lyuis bildirib.

# Etibar Məmmədov "test" edilir...

**Keçmiş AMİP-çi Əli Əliyevin, keçmiş xanımının nə zamansa keçmiş sədrə, Etibar Məmmədova ünvanladığı məktubu ətrafında müzakirədən dolayı yazdığım yazı qarşılığı hələ də reaksiyalar alıram. "Uman yerdən küsərlər" işarəti ilə yazılan, Musavat.com-da dərc olunan "Siyasiləşən qadınlar" başlıqlı yazıma belə reaksiyalar gözləmirdim, doğrusu. Təbii ki, qeyri-rəsmi. Təbii ki, "nəyinə lazımdır" sualı ilə...**

**Jalə MÜTƏLLİMOVA**



**Qəribə millətik, heç nə lazım olmamalıdır.** Susmalıyıq, toxunulmazlar, keçilməzlər var. Niyə? Axı sonra həmin o "döymə, toxunma" deyənlər hamıdan daha çox və möhkəm bağırır "dəhşətdir!", "batırıq!" deyə.

Sözün düzü, məsələnin bu qədər ciddi pərdəarxası məqamlarının olduğunu ağıl etməmişdim. Çoxu kimi düşündüm, Əli müəllimdir, özünü test eləyir, görsün və göstərsin, nə bacarır. Amma nəzərə alanda ki, reaksiyalar hansı çevrələrdən gəldi, məsələ aydınlığa doğru oldu. Əslində nə baş verir? Əli Əliyev növbəti parlament seçkilərinə qatılmaq istəyir, bu sirr deyil. Buna görə ona nəhəng, həm də yaxından tanıdığı biri ilə şou yaratmaq vacibdir. Təxminən bu mənzərə yaranmalıdır ki, görün, mən filankəsi neynəyəcəm. Bunun üçün onun baxış bucağına görə ən yaxşı variant Etibar Məmmədovdur. Adam təxminən yatmış şirdir. On ildən çoxdur açıq siyasi proseslərdə iştirakçı deyil. Əslində bu fikrin özü də o qədər inandırıcı deyil. Çünki siyasət tək girişi olan mənzil kimidir. Yəni çıxış qapısı yoxdur. Hər halda görünən bəlkə də aldadıcı mənzərə bu ki, Etibar Məmmədov adlı siyasi sima de-aktivdir. Bu üzdən o bir çoxlarına, o cümlədən keçmiş partiyadaşına və səhv etmirəmsə, qohumuna hədəf kimi göründü. Efir söhbətlərindən birində ilk həmlə gəldi, söhbətin nədən getdiyini dilə gətirməsə də, Əli Əliyev sabiq partiya liderini heç zaman bağışlamayacağını dedi. Buna cavab olaraq ortaya nə zamansa Etibar Məmmədova Əli Əliyevin keçmiş xanımından ünvanlanan məktub çıxdı ortaya, şikayət məktubu. Düzü, Əli Əliyevi susdurmaq üçün o qədər də uğurlu olmayan, hazırlıqsız və emosional cavab idi bu. O üzdən aqressiya doğurdu. Və haqlı olaraq sual ortaya çıxdı ki, əgər Etibar Məmmədov yenidən aktiv siyasi fəaliyyətə dönüş edirsə, bunu Əli Əliyevin və onun keçmiş xanımının üzərindən etmək ona yaraşmadı axı. Ancaq məlum olur ki, məsələ alayıdır. Bu həm qorxmaq, həm də qorxutmaqdır. Daha dəqiqi, elektorat yoxlamaqdır.

**Bəlli olduğu kimi, sabiq səhiyyə naziri Əli İnsanov azadlığa çıxdı.** Bu azadlıq ölkə mediasında nə zamansa siyasi proseslərdə önəm daşıyan yerliçilik ənənəsinin geri döndüyü kimi dəyərləndirildi. Bu fonda ilk yada düşənlərdən biri də təbii ki, əslən qərbi azərbaycanlı, sabiq AMİP lideri Etibar Məmmədov oldu. Əli İnsanovun "çoxdan siyasətdən uzaq olan adamların yenidən siyasətə qaytaracağıq" mesajı da daha çox əslən Qərbi Azərbaycandan olan siyasilərə, ələlxüsus da Etibar Məmmədova işarət kimi dəyərləndirildi.

Bütün bunların fonunda təbii ki, Əli Əliyevin maraqlı bir missiyası olmamış deyildir. Etibar Məmmədovun qarşısına yalnız o çıxa bilər. Nə də olsa sabiq partiya yoldaşıdır. Və təbii ki, bir-birinin addımlarını proqnozlaşdırmaq kimi eynilikləri var. Ancaq bir məqam nəzərə alınmayıb. Əli Əliyev AMİP-də üçüncü kateqoriya siyasətçi kimi media qarşısına çıxarılanda, Etibar Məmmədov lider idi. Təbii ki, o, lider olaraq bütün məlumatların və atacağı addımların üçüncü kateqoriya olanla bölüşmürdü. Ona yalnız hansısa tapşırıqlar verilirdi icra eləməsi üçün.

Bir sözlə Əli Əliyevlə Etibar Məmmədovu yoxladılar, test elədilər. Görəsən, nə qədər regionçudur? Əli İnsanovla münasibətləri hansı səviyyədədir? İllərdir proseslərdən uzaq olmasına rəğmən elektoratı varmı? İnsanların yadındadırmı? Ona kimin hansı münasibəti var?

Əslində Əli Əliyevlə Etibar Məmmədovu yoxlamaq uğursuz variant idi. Çünki sabiq AMİP lideri siyasi arenada həm də ən qısadanışan və özünübiruzə verməyənlərədən idi. Yəni test alınmadı. Bəlkə də bu testin cavabı istənilən kimi aydın alınmadı. Yəqin ki, bu Əli Əliyevin siyasi gələcəyini də bəlli edəcək.

Qaldı ona ki, Əli Əliyevin millət vəkili olsunmu, olmasınmı? Onun insanlığı barədə kobud və sərt nəsə deyə bilmərəm. Amma bir vətəndaş mövqeyim var, onu demək boynumun borcudur. Düşünürəm o, cəmiyyət üçün faydalı vəkillərdən, sözü keçən siyasi xadimlərdən deyil və olmayacaq.

Əvvəla ona görə ki, keçmiş də olsa xanımını, oğlunun anasının adını siyasi pilləkəndə tramplin etdi. Bunu həmin xanımın yazdığı və ya adından yazılan cavab da bəlli edir. O cavabda qorxu var idi. Bir ananın atası ilə ünsiyyətdə olan oğlunu itirmək qorxusu. Yəni qadın, ya oğlunu itirməmək üçün ağlına gələni yazıb, ya da necə gəldi yazılan yazının altına imza atıb...

Ayrıca, bilmirəm yaşıdım olan həmkarların yadındadır, ya yox? İllər öncə Əli Əliyevin xanımı ilə mübahisəsi Azərbaycan mediasında gündəm idi. Onda hələ ailə üzvlərini siyasi məqsəd üçün alət eləyən kişilər demək olar ki, yox idi. Amma xatırlayıram o gündəmi Etibar Məmmədova və elə Əli Əliyevin özünə də saygıdan dolayı əsasən media quruluşlarının heç biri tirajlamadı. Bir neçə az populyar sayt tirajladı. İndi həmin müəlliflər arasında internet televiziya işlədənlər də var. Nə zamansa Etibar Məmmədovun televiziya açmasına dəstək verməyi adamlar da deyə bilərik. Çox bəsit iş oldu bu.



**İndi qayıdaq ona ki, niyə çox hörmətli Əli Əliyev görmək istədiyim deputat obrazı deyildir.**

Birincisi, siyasətə ailə üzvlərini biabırçı formada cəlb edir. Bu gün Azərbaycan cəmiyyətində ikrah doğuran və media mənsubu olaraq bəndənizin də qarşısında durub mübarizə aparacağı məsələlərdəndir bu.

İkincisi, Azərbaycan siyasi səhnəsində keçmişi, həyatı və fəaliyyəti təmiz olmayan yetərincə siyasi sima var. Onlar bu gün hədəf olan Azərbaycanın siyasi hakimiyyətini heç nədən qoruya bilmir. Heç nəylə mübarizəyə girişə bilmir. Çünki özü öz başına qaxıncdır. Yəni dövləti və hakimiyyəti qurtarmaq, uzunömürlü etmək üçün yeni bir yol, xətt açılmalı. O xətlə keçmişi ləkəsiz, ailəsi qüsursuz, dövlətçi, millətçi, adamların etibarını qazana biləcək, söyüş siyasətinə sinə gərəcək, vicdanlı, əqidəli, sadiq həm də müstəqil adamlar siyasi səhnəyə gətirilməlidir. Onlar daha çox insanlarla işləməlidirlər. Bu işdə ümid yeni keçiriləcək parlament seçkilərinədir.

**Bəs Əli Əliyev bu standarta uyurmu? Əsla. Yeni seçiləcək namizədlər sırasında ola bilərmi? Zənnimcə olmamalıdır! Olmasına yol verilməməlidir! Veriləcəksə, deyiləcək bir söz qalır geriyə: Vay bizim də, millətin də, dövlətin də halına...**

# İraq həbsxanasında qalan azərbaycanlı uşaqların müəmmalı taleyi

## XİN sözçüsü: "Ötən il İraqdan valideynlərini itirmiş 20 azyaşlı uşaq ölkəmizə qaytarılıb, bu istiqamətdə işlər davam etdirilir"

**Uzun müddətdir ki, Bağdaddakı İŞİD qurbanı olan azərbaycanlı uşaqların taleyi barədə rəsmi məlumat yoxdur. İki ay öncə "Reuters" agentliyinin müxbiri İraqın paytaxtı Bağdadda yerləşən Rusafa qadın həbsxanasından geniş reportaj hazırlayarkən azərbaycanlı uşaqların ona necə yalvarmasından bəhs etmişdi.**

"Nə olar, evimizə getmək istəyirəm, bizə kömək edin" deyə azərbaycanlı bir qız müxbirə dil töküb. "Bizə paltar, dərman gətirmisən? Bizə dərman lazımdır". Bunu isə digər mavi hicablı azərbaycanlı qız deyib. Həbsxana direktoru müxbirə bildirib ki, bu sözləri deyən azərbaycanlı qızın anası ömürlük həbsə məhkum olunub. Çünki anası İŞİD-ə üzv olub, İraqa qanunsuz gedib. Qız isə yaşı çatmadığından İraq qanunları ilə mühakimə oluna bilməz. Onun dəmir barmaqlılar arxasında nə qədər qalacağı isə məlum deyil.

"Reuters" Azərbaycan üçün çox mühüm sensansiyalı məlumat da açıqlayıb. Azərbaycan İraqda ən çox vətəndaşı həbs olunmuş əcnəbi ölkələrdən biridir! Bu sırada Rusiya və Türkiyə də var. Ancaq agentlik Azərbaycanın Xarici İşlər Nazirliyindən İŞİD-ə bağlı uşaqların repatriasiya siyasətinə dair şərh ala bilmədiyini yazmışdı.




Qeyd edək ki, 2017-ci ildə Dövlət Təhlükəsizlik Xidməti məlumat yayaraq bildirmişdi ki, ümumilikdə 900-dək azərbaycanlı İŞİD terror təşkilatına qoşulub və onlardan 85 nəfəri hazırda həbsdədir, 195 nəfər isə vətəndaşlıqdan çıxarılıb. Elə həmin il millət vəkili Qənirə Paşayeva İraqda səfərdə olmuş və orada kimsəsizlər evində qalan 20 azərbaycanlı uşaqla görüşmüşdü. Həmin uşaqlar millət vəkilinə "Məni də apar özünlə evimizə", "Mən də getmək istəyirəm Azərbaycana", "Bizi nə zaman aparacaqsınız buradan" deyə yalvarmışdılar. Millət vəkili bildirmişdi ki, həmin uşaqların Azərbaycana gətirilməsi üçün lazım olan vəsait yol pulu və təxminən hər uşaq üçün 400 dollar həcmində cərimədir. Bundan sonra bu məsələ uzun müddət gündəmdə qaldı və dövlət rəsmiləri məsələyə reaksiya verərək, müvafiq qurumların tez bir zamanda həmin uşaqların Azərbaycana gətirilməsi və yaxınlarına təhvil verilməsi istiqamətində işlər görüldüyünü bəyan etdi. Hətta əvvəl 9 uşaq, daha sonra isə digər uşaqların ölkəyə gətirildiyi barədə açıqlama verildi.

Beləliklə, yayılan informasiyalardan belə məlum olur ki, hələ də İraqda çoxlu azərbaycanlı qadın və uşaqlar saxlanılmaqdadır. Qadınların İŞİD-ə qoşulduqları üzərində cinayət məsuliyyəti yaratdığından hələlik onların ölkəyə gətirilməsi mümkünsüz görünür. Lakin günahsız uşaqların ölkəyə gətirilməli olduğu bildirilir. Artıq bir neçə dövlət İraqdakı vətəndaşlarının, xüsusən də uşaqların öz ölkəsinə gətirilməsinə nail olub, bu yöndə ciddi işlər aparmaqdadır. Məsələn, bu yaxınlarda Tacikistan hökumətinin İraqdan 84 azyaşlını repatriasiya etdiyi barədə məlumat yayıldı. Eləcə də Çeçenistan prezidenti Ramzan Kadırov İŞİD-ə qoşulan vətəndaşlarına qarşı çox sərt mövqe nümayiş etdirsə də bir müddət bundan əvvəl onun təşəbbüsü ilə Suriya və İraqın qaynar nöqtələrində qalan 100-ə yaxın insan Qroznıya gətirildi. Onların arasında qadınlar, uşaqlar da var.

*Bəs İraqda gözü yolda qalan, qarşılarına çıxan hər kəsdən onların ölkəsinə geri qaytarılmasını yalvaran azərbaycanlı uşaqların taleyi necə oldu? Rəsmi qurumlar bu barədə hansı işlər aparır?*

Məsələ ilə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi ilə əlaqə saxladıq. **Qurumun mətbuat katibi Leyla Abdullayeva** bildirdi ki, Azərbaycanın İraqdakı Səfirliyi mütəmadi əsaslarda İraqın XİN və digər aidiyyəti qurumları ilə təmasdadır: "Məlum olduğu kimi, ötən il İraqdan valideynlərini itirmiş 20 azyaşlı uşaq ölkəmizə qaytarılıb. Bu istiqamətdə işlər müvafiq qaydada davam etdirilir".

Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi sorğumuza cavab olaraq bildirdi ki, həmin uşaqlar bütün avadanlıqlarla təmin olunub, onların psixoloji durumları və digər problemlərinin həlli yolunda Səhiyyə Nazirliyi, DTX, XİN, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi komitə ilə birgə bu işi aparır.

**Xatırladaq ki, bundan əvvəl mövzu ilə bağlı əməkdaşımız Azərbaycanın hazırda İraqdakı səfiri Ramiz Qafarovla əlaqə saxlamağa çalışmışdı. Lakin səfir əməkdaşımızın sualını dinləyib, ona cavab vermək istəmədiyini bildirmişdi.**

❑ **Xalidə GƏRAYEVA, "Yeni Müsavat"**

# Face App təlaşı: istifadəçilərin təhlükəsizliyinə təhlükə?

## İlham İsmayıl: "ABŞ-ın narahatlığı üçün əsaslar var..."





**Fotoşəkillərin işlənməsi üçün nəzərdə tutulmuş "FaceApp" tətbiqi ABŞ-ın milli təhlükəsizliyinə təhdid törədir. ABŞ Senatında demokratların lideri Çak Şumer belə deyib. O, məsələ ilə bağlı ABŞ-ın Federal Təhqiqatlar Bürosunun direktoruna və Federal Ticarət Komissiyasına məktub göndərib.**

Ç.Şumer hesab edir ki, mənzil-qərargahı Sankt-Peterburqda yerləşən şirkətin hazırladığı mobil tətbiq milli təhlükəsizliyə və milyonlarla amerikalının məxfi məlumatları üçün təhlükə törədə bilər: "İstifadəçilər tətbiqdən istifadə etmək üçün şirkətə şəxsi fotoşəkillərinə və məlumatlarına tam və qeyd-şərtsiz giriş imkanı yaratmalıdır. Bu, o deməkdir ki, şirkət gələcəkdə istifadəçinin razılığı olmadan tətbiq vasitəsilə yüklənən fotoşəkillərdən istifadə edə bilər".

**Proqramın Rusiya şirkəti tərəfindən hazırlanması amerikalı senatorda əlavə narahatlıqlar doğurur:** "FaceApp"da şəxsi məlumatlarını yükləmiş milyonlarla amerikalının informasiyası Rusiya hökumətinin və ya onunla bağlı şirkətlərin əlinə keçə bilər".

"FaceApp" tətbiqi Rusiyanın "Wireless Lab" şirkəti tərəfindən hazırlanıb. Tətbiq süni intellekt texnologiyasından istifadə etməklə yüklənən şəkillərdə insanların üz cizgilərini dəyişərək qocalıq dövrünü təsvir edir.

**"Wireless Lab" tətbiq haqqında yayılmış iddialara cavab verib.** Proqramın yaradıcısı Yaroslav Qonçarov məlumatların üçüncü tərəfə ötürülməsi ilə bağlı informasiyaların yanlış olduğunu deyib. "Hazırda bizim məlumat mərkəzimizə müraciət edən insanların əksəriyyəti fotolarının silinməsini tələb edirlər. Ciddi basırıqlıq yaranıb. Amma bu, bizim üçün prioritet məsələdir", - Qonçarov bildirib. O, həmçinin əlavə edib ki, məlumatların üçüncü tərəfə ötürülməsi müzakirə mövzusu deyil: "FaceApp" üzərində iş görülən fotoların böyük hissəsini "buludlar"da saxlayır. Biz, sadəcə, istifadəçinin redaktə üçün seçdiyi fotoları yükləyirik. Heç vaxt əlavə hansısa fotonu götürmürük. Yüklənən şəkillər isə 48 saat ərzində serverlərimizdən silinir".

ABŞ Senatında demokratların lideri Çak Şumerin çağırışlarının nə dərəcədə əsaslı olmasını Federal Təhqiqatlar Bürosu və Federal Ticarət Komissiyası araşdıracaq.

**Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl** "Yeni Müsavat"a deyib ki, belə tətbiqlər cəmiyyət üçün sadə görünə bilər. Kimlərsə düşünə bilər ki, sıradan bir tətbiqdir: "Bundan əvvəl də insanlar müxtəlif kompüter proqramlarından istifadə etməklə uşağa bığ, saqqal qoyub qocaldа və ya qoca insanı cavan göstərə bilirdilər. Bu baxımdan "FaceApp" tətbiqi sıradan proqram kimi qəbul edilə bilər. Lakin ABŞ Senatında məsələyə bu cür yanaşma sərgilənirsə, deməli tətbiqlə bağlı əllərində nəsə məlumatlar var".

**İlham İsmayıl deyir ki, facebook sosial şəbəkəsi ABŞ vətəndaşına məxsusdur və bu şəbəkə dövlət büdcəsinə böyük vergilər ödəyir:** "Belə görünür ki, ABŞ vətəndaşına məxsus olan sosial şəbəkədə yayılan Rusiya mənşəli tətbiqlə bağlı xüsusi xidmət orqanları məlumatlıdırlar. Rusların belə bir tətbiqi işləyib hazırlamasında da arxa plan, gizli maraqlar var. Rusiya prezidenti Vladimir Putin jurnalistlərin gələcəklə bağlı suallarına cavab verərkən demişdi ki, kim süni intellektə yiyələnəcəksə, dünyanın sahibi də o olacaq. Ona görə də Rusiya hazırda süni intellektə, texnolojiyə xüsusi önəm verir. "FaceApp-ın süni intellektə əsaslanması da sıradan məsələ deyil. Dövlətlər bu tətbiqdən öz maraqları üçün yararlana bilərlər. Bu baxımdan ABŞ rəsmilərinin təlaşı başadüşüləndir. ABŞ bu məsələnin sonuna çıxmaq istəyir, araşdırılmasını, aydınlaşdırılmasını istəyir. ABŞ dövlətinin narahatçılığı üçün əsaslar var".

**İlham İsmayıl deyir ki, perspektiv müharibələrdə insandan, canlı qüvvədən maksimum az istifadə edilməsi qarşıya qoyulan məqsədlərdəndir**: "Maksimum çalışılır ki, kompüter arxasında oturmaqla lazım olan informasiyalar tapılsın. İnsan bəzi məsələlərdə əvəzolunmazdır, amma elə məsələlər də var ki, insanın çətinliklə nail ola biləcəyi işi texnologiyalar çox qısa zaman kəsiyində gerçəkləşdirə bilər. ABŞ bu baxımdan narahat olmadığı məsələyə bu cür reaksiya verməzdi".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Çox gecikmiş "ifşa"

Xalid KAZIMLI

**Hüquq müdafiəçisi Leyla Yunusun son videoçıxışına səbirlə qulaq asdım. Çıxışın rusca olmasına heç bir iradım yoxdur. Zatən, L.Yunus özünü bu dildə daha yaxşı ifadə edir. Onun səsləndirdiyi bir çox fikirlərin, xüsusilə də klan hakimiyyətinə dair dediklərinin cavabını da başqaları verməlidir. Ancaq Leyla Yunusun milli-azadlıq hərəkatının lideri Əbülfəz Elçibəy barədə dedikləri, onu Naxçıvan-Ermənistan klanının gizli və köhnə üzvü sayması xeyli dərəcədə mübahisəlidir.**

Xüsusilə də, köhnə hərəkatçılar, 1989-93-cü illər arasında AXC üzvü olmuş şəxslər bu ittihamların üstündən sakitcə keçə bilməzlər. Bu, onsuz da gələcəyi mübhəm olan insanların öz şanlı keçmişləri ilə öyünmək, qürur duymaq imkanını belə əllərindən alır.

Elçibəy təxminən 50 il öncə bağrından qopduğu millətin təməl haqları, azadlığı, suverenliyi uğrunda mübarizəyə, antisovet fəaliyyətə başlayanda nə DTK əməkdaşı, nə də klan üzvü ola bilməzdi. DTK o dövrdə, eləcə də ondan əvvəl və sonra antisovet ovqatlı heç kəsə təhəmmül etməz, cəzasını dərhal kəsər, ya da bəzi məşhur dissidentlərlə davrandığı kimi davranar, aparıb ölkənin sərhəd qapısından o tərəfə keçirərdi.

Elçibəy ölkə xaricində diplomatik fəaliyyətdə olduğu zaman, söz yox ki, DTK-nın əməkdaşları ilə təmasda olub, ancaq bu, bu idarənin qarşısında hər hansı bir daimi öhdəlik götürmək anlamına gəlmir. Yəni SSRİ dönəmində Xarici İşlər Nazirliyinin strukturlarında çalışanların, eləcə də ölkə xaricində işləməyə gedənlərin hamısı ucdantutma DTK agenti ola bilməzdi. Bu, absurd olardı. O işə adamları həmişə seçərək cəlb ediblər.

Təəssüf ki, tək bizim ölkəmizdə deyil, keçmiş sosialistdüşərgəsinə daxil olan ölkələrdə, eləcə də SSRİ respublikalarında DTK ilə, XİN-lə uzaqdan-yaxından təması olan hər kəsə "agent" damğası vurulur və onda bir (lap olsun, iki, üç) halda hədəf düz vurulmuş olur, qalanında yanlış ittiham və şər-böhtan səciyyəsi daşıyır.

İkincisi, ötən əsrin 60-cı illərində ölkəmizdə klan hakimiyyəti bərqərar olunmamışdı. Bu iş sonradan 70-ci illərin axırında, səksəninci illərin əvvəlində təşəkkül tapmağa başladı. Hətta onun rüşeymləri 70-ci illərdə qoyulsa belə, heç kəs antisovet fəaliyyətilə məşğul olan "etibarsız şəxs"i öz sıralarına daxil etməzdi. Çünki sözügedən klan "sovet-kommunist ideyaları uğrunda çarpışan əqidəli kommunistlər"in nomenklaturası üzrə formalaşdırılırdı. Sovet dövlətinə qarşı olan şəxs kimə lazım idi?

Elçibəyin dissident olduğu halda az cəza almasına və sonradan Əlyazmalar İnstitutunda işə düzəlməsinə gəlincə, 60-cı illər yumşalmasından sonra bizim ölkəmizdə də bir xeyli milli düşüncəli kadrlar vardı və onlar xalqı düşünən, Azərbaycan davası aparan şəxsləri bu və ya digər şəkildə qoruyurdular.

Elə olmasaydı, təkcə "Gülüstan" poemasındakı fikirlərə görə Bəxtiyar Vahabzadə, eləcə də Azərbaycan dilinin dövlət dili statusu qazanması uğrunda çalışan, bu yolda öz yüksək dövlət vəzifəsindən götürülən yazıçı Mirzə İbrahimov, antosovet baxışlarına görə bir müddət həbsdə yatan yazıçı Gülhüseyn Hüseynoğlu kimi ziyalıları da məhv edərdilər.

L.Yunusun indi açıqladığı bəzi məqamlara gəlincə, kaş o, bunu Elçibəyin iqtidar komandasında təmsil olunanda (Müdafiə Nazirliyinin önəmli isimlərindən biri olduğu vaxt), yaxud mərhum prezidentin sağlığında açıqlayaydı və onun bu ittihamlara cavab vermək imkanı olaydı.

Rəhmətə getmiş, özünü müdafiə etmək iqtidarında olmayan tarixi personaların ünvanına ittihamlar səsləndirmək çox asandır. Üstəlik, başqaları nə qədər müdafiə etsələr də, bu, ittiham olunan şəxsin cavabları qədər effekt verməyəcək.

Elçibəy Azərbaycanın tarixində mühüm rol oynamış və bütün yanlışlıqları, doğruları ilə birlikdə xalqın yaddaşında parlaq iz qoymuş şəxsiyyətdir. O, hakimiyyətdə cəmi bir il olub, amma devrildiyi gündən keçən 26 ildə elə bir gün olmayıb ki, mediada, ictimaiyyət arasında adı çəkilməsin. Vəfatından keçən bu 19 ildə də o, bir gün olsun unudulmayıb.

**Bəlkə də biz Elçibəy haqqında bir çox həqiqətləri bilmirik, amma əminəm ki, onun ən yaxın silahdaşları mərhum prezidentin barəsində çox şeyləri bilirlər. Onların içində geniş ictimaiyyətin bilməli olmadığı şeylər də var, şübhəsiz. Ancaq tarixi şəxsiyyətləri "ifşa etmək", ölkənin indiki durumuna görə onları baiskar elan etmək ənənəsinə də son qoyulmalıdır. Unutmaq olmaz ki, hər bir siyasi xadim bu xalqın içindən çıxıb, bizdən biri olub. Onun yerində ölkənin ən kristal, ən təmiz, ən ideal şəxsi olsaydı da, mütləq səhvlər buraxacaqdı və mütləq həmin ideal şəxsiyyəti də ifşa etmək istəyənlər tapılacaqdı...**



# "Türk axını" Cənub Qaz Dəhlizinə rəqib, yoxsa...

## Ankara yenidən Rusiyadan endirim ala biləcəkmi?

**Rusiya qazını Türkiyəyə və oradan da Şərqi Avropaya daşıyacaq "Türk axını" kəmərinin tikintisi plana uyğun davam edir. Bu barədə açıqlamanı "Qazprom" şirkətinin İdarə Heyətinin sədr müavini Oleq Aksyutin verib. Onun sözlərinə görə, kəmərlə ilk qaz nəqli planlaşdırıldığı kimi, 2019-cu ilin dekabrında baş tutacaq. Kəmərin dəniz hissəsi, həmçinin Rusiya ərazisindəki quru hissəsi tam hazırdır. Türkiyə ərazisindəki tikinti işləri isə 88 faiz icra olunub.**

**Xatırladaq ki, "Türk axını" layihəsi Rusiyadan Qara dənizin dibi ilə Türkiyə sahillərinə hər birinin ötürücülük gücü 15,75 milyard kubmetr olan iki boru xəttinin çəkilməsini nəzərdə tutur.** Kəmərin 930 km-i dənizin dibi ilə çəkilib. Türkiyə sahillərindən qazı Bolqarıstan sərhədinə çatdıracaq hissənin uzunluğu isə 180 km təşkil edir. 2018-ci ilin noyabrında İstanbulda kəmərin dəniz hissəsinin başa çatması münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə V.Putin və Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan iştirak edib.

**"Türk axını" kəmərini bir çox mərkəzlər Azərbaycandan Avropaya uzanan Cənub Qaz Dəhlizi (CQD) üçün əsas rəqib kimi qiymətləndirirlər.** Hesab olunur ki, "Türk axını" Azərbaycan qazının satışına ciddi problemlər yarada bilər. Lakin real vəziyyətin təhlili göstərir ki, bu gözləntilər əsaslı deyil. Belə ki, Türkiyədə təbii qaz istehlakı 2018-ci ildə əvvəlki ilə nisbətən 6 faiz azalaraq 49,3 milyard kubmetrə düşüb. 2017-ci ildə isə istehlak 53,8 milyard kubmetr təşkil etməklə rekord səviyyəyə yüksəlmişdi. Ötən il Türkiyənin qaz idxalı da 8,8 faiz azalmaqla 50,3 milyard kubmetr təşkil edib. Bunun 11 milyard 328 milyon kubmetri maye qaz - LNG olub. Rusiyadan qaz alışı 23 milyard 642 milyon kubmetr, İrandan 7 milyard 863 milyon kubmetr, Azərbaycandan isə 7 milyard 527 milyon kubmetr təşkil edib. Bu üç ölkədən yalnız Azərbaycandan qaz idxalında artım olub - 1 milyard kubmetr. Rusiyadan idxal 2017-ci ildəki 28,6 milyard kubmetr qarşılığında 5 milyard kubmetr, İrandan 9,2 milyard kubmetr qarşılığında 1,4 milyard kubmetr azaldılıb. Düzdür, istehlakın azalmasında hava şəraitinin isti keçməsi də rol oynayıb. Lakin idxalın azalmasında əsas amillərdən biri Türkiyə hökumətinin idxal mənbələrini diversifikasiya etmək istiqamətindəki fəaliyyətləridir. Rəsmi Ankara Rusiyadan, Azərbaycandan və digər mənbələrdən öz ərazisindən keçməklə Avropa bazarlarına uzanan kəmərlər şəbəkəsinin yaradılmasında maraqlıdır, bu istiqamətdə zəruri olan bütün dəstəyi verir. Lakin öz ölkəsinin tələbatını ödəmək üçün mənbələri genişləndirmək planlarını da kənara qoymur.

**Digər tərəfdən, Türkiyə Rusiyadan Ukrayna ərazisindən keçməklə gələn "Transbalkan" kəməri ilə ildə 13 milyard kubmetr qaz alır.** Daha 16 milyard kubmetr isə artıq istismarda olan "Mavi axın" kəməri ilə nəql olunur. "Türk axını"nın birinci xətti işə düşdükdən sonra "Transbalkan"la nəql dayandırılacaq və oradan gələn qaz həmin xəttlə alınacaq. Türkiyənin daxili tələbatını təmin etmək mənbələrinin diversifikasiyası üçün çalışmalarını, həmçinin daxili istehlakın azalmağa başladığını nəzərə alsaq, bu ölkənin "Türk axını"ndan 13 milyard kubmetrdən əlavə qaz həcmlərini götürəcəyi real görünmür. Bu baxımdan, Rusiya birinci xətdəki artıq həcmləri - ildə 2,75 milyard kubmetri satmaq üçün ən qısa müddətdə bazar tapmalıdır. İkinci xəttin işə düşməsi üçünsə onunla nəql olunacaq 16 milyard kubmetr qazın həm alıcısı tapılmalı, həm də onu alıcıya çatdıracaq şəbəkə hazırlanmalıdır.

**Buna görə də Rusiya Balkan ölkələri ilə danışıqları intensivləşdirib.** Avropaya qazın Yunanıstan ərazisi ilə çatdırılması planları Avropa Komissiyasının razılıq verməməsi ucbatından iflasa uğradıqdan sonra əsas ümid Bolqarıstan-Serbiya-Macarıstan-Avstriya marşrutuna qalıb. Bu ilin yanvarında Bolqarıstan qaz nəqli şəbəkəsinin operatoru olan "Bulqartransqaz" rəsmən "Türk axını" ilə gələcək Rusiya qazını qəbul edərək Serbiya sərhədinə çatdırmaqdan ötrü öz şəbəkəsini genişləndirməyə 1,6 milyard dollar sərf edəcək. Yanvar ayında Putinlə görüşündə Serbiya prezidenti də ölkəsinin "Türk axını"na qoşulmaqda maraqlı olduğunu açıqlayıb. Rusiya tərəfi bunun üçün Serbiyaya 1,4 milyard dollar dəstək verəcəyini bəyan edib. Mart ayında Serbiya hökuməti öz ərazisindən Bolqarıstan-Macarıstan qaz kəməri xəttinin çəkilişinə icazə verib. Aprel ayında isə kəmərin tikintisinə başlanıb.

**Kəmərin Türkiyə ərazisinə qədər çəkilişinin 7 milyard avroya başa gəlməsi nəzərdə tutulur.** İlkin məbləğ 6 milyard avro hesablansa da, ötən ilin noyabrında "Qazprom" rəhbərliyi xərclərin daha 1 milyard avro artdığını bəyan edib. Şirkət ilkin mərhələdə bu xərcləri öz hesabından, daha sonra isə "Şimal axını"nda olduğu kimi, istiqrazların emissiyası yolu ilə maliyyələşdirəcək.

**Maraqlıdır ki, Serbiya-Bolqarıstan-Macarıstan xətti bundan əvvəl Avropa Komissiyası tərəfindən qadağan olunmuş "Cənub axını" marşrutu ilə üst-üstə düşür.** Bir neçə il əvvəl Rusiya qara dənizin dibi ilə bu marşrut ezrə kəmər çəkməyə çalışsa da, böyük həcmli işlər görüləndən sonra 2014-cü ildə Bolqarıstan öz ərazisi ilə çəkilişlərə icazə verməkdən imtina etdi. Nəticədə, Rusiya tərəfi böyük həcmdə zərərlə üzləşdi. Bu baxımdan, bir çox analitiklər Rusiyanın yenidən eyni aqibətlə üzləşə biləcəyi ehtimalını istisna etmirlər.

"Türk axını"nın CDQ-yə satış bazarı baxımdan rəqib olması həm də ona görə mümkün görünmür ki, Azərbaycanın dəhlizlə Avropaya çıxaracağı bütün qaz həcmlərinin alıcıları artıq müəyyənləşib. Rusiya isə hələ buna nail ola bilməyib. Hətta Rusiya Azərbaycan qazının qiymətini "öldürmək" üçün öz məhsulunu daha ucuz təklif etsə belə (2016-cı ildə "Qazprom" Avropanın ABŞ-dan maye qaz almasını önləmək üçün öz qazının qiymətini kəskin ucuzlaşdırmışdı - red.), onun bazara çıxış üçün zəruri infrastrukturu hələ formalaşmayıb. Bu prosesin 2-3 il çəkəcəyi gözlənilir. CDQ üzrə işlər isə artıq son mərhələdədir.

Qeyd edək ki, Türkiyə Rusiyanın Ukraynadan yan keçməklə Avropaya çıxış əldə etmək istəyindən öz xeyrinə daha çox bəhrələnməyə çalışır. Bu ilin aprelində Rusiya prezidenti V.Putin açıq mətnlə Ankaranın "Türk axını" ilə əldə edəcəyi qazın qiymətində Moskvadan güzəşt istədiyini bildirib. Onun sözlərinə görə, Türkiyə tərəfi ilə "Qazprom" arasında bu məsələ ilə bağlı fikir ayrılıqları var: "Amma bunlar yəqin ki, həll olunacaq. Qazın qiyməti "Qazprom" deyil, bazar müəyyənləşdirir".

**Bu açıqlamaya rəğmən, qazın qiyməti ilə bağlı ölkələr arasındakı endirim təcrübəsi göstərir ki, əlində mühüm təsir rıçaqları olan Türkiyənin Rusiyadan əlavə endirim əldə etməsi xeyli realdır.**

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019

# Türkiyənin NATO ilə yolları ayrılacaqmı - ekspertlərdən maraqlı şərhlər

## Elxan Şahinoğlu: “Əslində Türkiyənin aldığı S-400 raketləri NATO-nun gücünü artırır”
## Qafar Çaxmaqlı: “Türkiyə bu, dik duruşunu davam etdirməlidir”



**Deyəsən Türkiyə məsələsində ABŞ prezidenti Donald Trampın Amerika Konqresinə qalib gələ bilməyəcəyi barədə təxminlər özünü doğruldacaq. Hər halda son gəlişmələr belə pessimist qənaətə gəlməyə sövq edir.**

Xatırladaq ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Yaponiyada Böyük 20-lərin zirvəsi çərçivəsində amerikalı həmkarı ilə görüşdən çox məmnun ayrılmışdı. Bundan sonra Ankara Rusiyadan aldığı S-400 raketlərinin ölkəyə daşınması istiqamətində sürətli addımlarını atdı. Lakin Avropa İttifaqı başqa bəhanələrlə Türkiyəyə qarşı sanksiya qərarları qəbul etdi ki, bunun ardınca ABŞ-dan da təhdidlər gəlməkdədir.

Yeri gəlmişkən, ABŞ prezidenti Türkiyəyə sanksiyaların tətbiqi ilə bağlı eyni gündə iki fərqli açıqlama verib. O, ilk açıqlamasında sanksiyaların tətbiqini düşünmədiyini deyib. İkinci açıqlamasında isə Türkiyə mövzusunda Barak Obama administrasiyasının səhv etdiyini vurğulayan Ağ Evin başçısı “Çox çətin bir vəziyyətdir. İndi nə edə biləcəyimizə baxırıq. Hələ qərarımızı elan etmədik” söyləyib.

ABŞ-ın Türkiyəni F-35 proqramından çıxarmaq üçün düyməni basmasının ardınca prezident Donald Tramp üzərində təzyiq artır. Bu barədə Publika.az-ın yaydığı məlumatda deyilir. Bildirilir ki, respublikaçı senatorlar Ankaraya qarşı sanksiyaları tətbiq etməyə çağırıblar. Məlumata görə, Florida ştatından olan senator Risk Skott və İndiana ştatından olan Todd Youngin Türkiyəyə qarşı sanksiyaların tətbiqini nəzərdə turan qanun layihəsini Senata təqdim ediblər. Qanun layihəsində Türkiyənin Rusiyadan S-400 zenit-raket komplekslərini alması ABŞ-ın təhlükəsizlik maraqlarına “birbaşa və dəhşətli bir təhdid” olaraq xarakterizə edilir.

Qanunvericilər Tramp administrasiyanı “Sanksiyalar Yolu İlə Amerikanın Düşmənləri ilə Mübarizə” (CAATSA) qanunu çərçivəsində sanksiyaları tam tətbiq etməyə çağırıblar. Həmçinin Rusiyanın ABŞ-a təşkil etdiyi təhdidin müzakirə edilməsi və Türkiyənin NATO-ya üzvlüyü üzərində düşünülməsi üçün NATO-nun toplantının keçirilməsi çağırışı qanun layihəsində yer alıb.

Bundan başqa, Senat Xarici Əlaqələr Komitəsinin demokrat üzvlərindən Bob Menendez Türkiyənin F-35 proqramından çıxarılmasının kifayət etmədiyini bildirib. Senator prezident Trampın CAATSA çərçivəsində Türkiyəyə sanksiyalar tətbiq etməyəcəyi halda Senata Vaşinqton rəhbərliyini buna məcbur edən qanun layihəsi təqdim edəcəyini söyləyib. CAATSA ABŞ prezidentindən 12 sanksiyadan beşini seçməyi tələb edir. Bunlara vizaların məhdudlaşdırılması, ABŞ-da yerləşən İxrac-İdxal Bankına girişin qadağan edilməsi, ABŞ maliyyə sistemi ilə əməliyyatların qadağan edilməsi və ixracat lisenziyalarının ləğvi kimi sanksiyalar daxildir. Lakin bu qanunda sanksiyaların tətbiqi üçün konkret cədvəl nəzərdə tutulmur. Yeni Tramp bu sanksiyaların müddətini gecikdirə bilər.

Bundan əvvəl Ağ Evi F-35 ilə bağlı rəsmi qərar verib. Qərara əsasən, Türkiyənin F-35 proqramına daxil edilməsi imkansız adlandırılıb. Buna səbəb kimi Türkiyənin Rusyadan S-400 zenit-raket komplekslərinin alınması göstərilib.

“Türkiyənin NATO-da iştirakı və NATO-nun Türkiyə ilə əməkdaşlığı ”F-35”lərdən daha dərin və əhatəlidir”. Bunu isə NATO-nin baş katibi Yens Stoltenberq ABŞ-ın Türkiyəyə “F-35” qırıcıları verməsini qadağan etməsi haqqında qərarına münasibət bildirərkən açıqlayıb.

Göründüyü kimi, ABŞ və Aİ-nin təzyiqləri davam edir. Eyni zamanda NATO-nun Ankara ilə münasibətlərində fərqli çalarlar hiss olunmaqdadır. Belə olan durumda Türkiyənin Alyansla əməkdaşlığının perspektivləri sual doğurur.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** hesab edir ki, Türkiyənin Rusiyadan aldığı S-400 raket sistemi Türkiyənin NATO-dan çıxmasına dəlalət etməcəyək: “Tam əksinə, Türkiyə NATO-da qalmaqda israrlıdır. NATO-nun özünün də Türkiyəyə ehtiyacı var. Təsadüfi deyil ki, Türkiyə cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan son çıxışında vurğuladı ki, əslində Türkiyənin aldığı S-400 raketləri NATO-nun gücünü artırır. Bəli, NATO-nun əsas dövlətlərindən biri Türkiyədir və Türkiyə güclüdürsə, NATO da güclüdür. NATO-nun Avrasiya bölgəsində Türkiyə kimi müttəfiqə ehtiyacı var. Mən düşünürəm ki, zaman keçdikcə, Qərbin Türkiyəyə təzyiqləri azalacaq. Belə baxanda NATO dövlətlərindən ancaq ABŞ Rusiya raketlərinin alınmasına etiraz edir. NATO-nun digər dövlətləri buna seyrçi mövqedən yanaşır. Bu da ondan xəbər verir ki, Türkiyə-NATO münasibətlərindəki əməkdaşlıq əvvəlki tempində davam edəcək”.

“Türkiyənin ənənəvi strateji müttəfiqlərindən, başda ABŞ olmaqla, NATO-dan bir qədər narazı qalmasının və bu qurumdan tədricən uzaqlaşmasının bir səbəbi var: hərbi anlamda onlardan bir şeylər əldə etməməsi”.



Elxan Şahinoğlu



Qafar Çaxmaqlı

Bu fikirləri isə **politoloq Qafar Çaxmaqlı** “Yeni Müsavat”a açıqlamasında söylədi. Ekspertin sözlərinə görə, NATO-nun ikinci ən böyük dövlətinin bir çox məsələlərdə məsafədə tutulması onu narazı salmaya bilməzdi: “Xüsusən Türkiyənin terrora qarşı, Yaxın Şərqdə öz təhlükəsizliyini qorumaq tədbirlərində NATO-dan və Amerikadan yetərli dəstəyi almaq bir yana - bu, həm də onun strateji haqqı idi - üstəlik, ona qarşı haqsızlıqlar edilməkdə idi. Bu da Türkiyəni başqa bir tərəfdə özünə tərəfdar axtarmağa sövq edəcəkdi. Nəhayətdə onu S-400 almaq üçün Rusiyanın qapılarına kim sövq etdi. Tramp etiraf edir ki, Obama yönətimi ona hava müdafiə silahlarını verməkdən imtina etdi. Belə olan təqdirdə Türkiyə nə etməli idi? İndi F-35 proqramından çıxarılır. Türkiyə belə silahlar əldə etmək üçün alternativlər axtarmalı deyilmi? Türkiyənin yerləşdiyi region, strateji mövqe onu hər zaman güclü olmaq məcburiyyətində buraxır”.

**Q.Çaxmaqlı baş verənləri sərf-nəzər etməyi zəruri sayır**: “Son zamanlarda Türkiyəyə qarşı yönələn siyasi proseslərə baxsaq aydın olar ki, qardaş ölkə hədəfə alınmışdır. Avropa İttifaqı heç bir əsas olmadan sanksiya qərarı verir. İttifaq öz açıqlamalarında Türk xalqının heç bir haqqını tanımır, neft və qaz axtarışları ilə məşğul olan Türkiyənin Şimali Kiprə qarant olan bir dövlət kimi heç bir haqqının olmadığını iddiasını irəli sürür. Artıq sanksiyalar barədə qərar qəbul edilib. ABŞ isə S-400-ə görə sanksiyalar tətbiq edəcəyi barədə təhdidlər irəli sürür. Bütün bunların olacağını bilən Türkiyə həmin sanksiyalarının heç bir təsiredici gücü olmadığını bildirir”.

**Bəs Qərb sanksiyalardan əlavə, Türkiyəyə daha nələr edə bilər? Q.Çaxmaqlı təhlükəli ehtimaldan bəhs etdi**: “Terror. Artıq bunun ilk siqnalları görünməkdədir. Ərbildə bir restoranda türk diplomatlara qarşı edilən hücum ola bilsin ki, bu terrorun birincisi və ya sonuncusu olmasın. Amerika Suriyada PKK ilə birlikdə Türkiyənin mövqelərini zəiflətmək üçün addımlar ata bilər. Başqa çox şeylər edilə bilər. Amma Türkiyə bu, dik duruşunu davam etdirməlidir. Çünki həm Aralıq dənizində, həm digər yerlərdə Türkiyənin atdığı addımlar milli maraqlardan qaynaqlanır. Təsadüfi deyil ki, hər addımda iqtidarı tənqid edən müxalifət də bu məsələdə iqtidara dəstək verir. Türkiyəyə qarşı bu təhdidlər məncə, 2020-nin aprelinə qədər davam edəcək, S-400-lərin tam yerləşdirilməsinə qədər. Amma Türkiyə bu basqılara əhəmiyyət verməden siyasətini davam etdirəcək”.

❑ **Cavid TURAN, “Yeni Müsavat”**

# Türkiyənin Azərbaycandakı sabiq səfirindən Avropa İttifaqına etiraz

## Hulusi Kılıç: “Avropa İttifaqının önümüzdəki günlərdə sağlam mövqedən çıxış edərək, bu qərarlardan vaz geçəcəyini gözləyirik”

**“Türkiyə, İngiltərə və Yunanıstan Kiprin 3 qarantor ölkəsidir. Bu mənada Avropa İttifaqının Kiprlə bağlı söz söyləmə haqqının olmadığını düşünürəm”.**

Bu fikirləri **Türkiyənin Azərbaycandakı və Moldovadakı keçmiş səfiri Hulusi Kılıç** Avropa İttifaqının Türkiyəyə sanksiya tətbiq etməsini “Yeni Müsavat”a şərh edərkən bildirdi.

Diplomat xatırlatdı ki, Avropa İttifaqı ölkələri NATO-nun üzvləridir: “NATO-nun ən önəmli üzvü Türkiyəyə qarşı sanksıya tətbiq olunması düzgün deyil. Eyni zamanda, Türkiyə, Avropa İttifaqına üzv ölkədir. Güney Kiprin yunan lideri Nikos Anasasiadis Quzey Kipr Türk Cümhuriyyəti (QKTC) prezidenti sayın Mustafa Akıncının ”ortaq komitə quraq-əlaqələndirək” təklifini rədd etdi. Bütün bunlar Avropa İttifaqının aldığı sanksiya qərarının yanlış olduğunu göstərməkdədir”.



H.Kılıç əlavə etdi ki, bu qərarlar Kipr probleminin həllini də çətinləşdiriləcək, həmçinin adada yaşayan iki xalq arasında soyuqluq və gərginlik yaşadacaq: “Bildiyiniz kimi, 2004-cü ildə adadakı iki xalq təklif edilən BMT-nin ”Annan planı”na Kipr Türkləri “bəli” deyərkən, yunanlar “xeyir” dedilər. “Annan planı”nı rədd etmələrinə rəğmən, Güney Kipr Avropa Birliyinə qəbul edildi. Yunanlar Avropa İttifaqı üzvü olduqdan sonra, Yunanıstanın da dəstəyilə uzlaşmaz bir tutum almaya başladı”.

**Türkiyə diplomatının fikrincə, təəssüf ki, bu gün gəlinən Güney Kiprin Avropa Birliyini öz maraqlarına alət etdiyini görməkdəyik:** “Quzey Kipr Türk Cümhuriyyətinin Baş naziri Ersin Tatar verdiyi açıqlamada Avropa Birliyinin qərarlarını utanc vəsiqəsi olaraq dəyərləndirdi. Avropa İttifaqının Türkiyəyə qarşı aldığı sanksiya qərarları bir tərəfdən İttifaqın etibarını zədələyib, digər tərəfdən Türk xalqının Avropa Birliyinə güvəninin azalmasına səbəb olub. Türk Dünyasının da alınan bu qərarlardan rahatsızlık duyduğunu düşünürəm. Avropa İttifaqının qəbul etdiyi qərarların simvolik özəlliyi var”.

**H.Kılıç qeyd etdi ki, bu qərarları həyata keçirilməsi mümkün olmayan və Türkiyəni narahat etməyəcək addımlar olaraq qiymətləndiririk:** “Türkiyənin öz qitə sahəsində və Quzey Kipr Türk Cümhuriyyətinin sahil sularında qazma və seysmik araşdırmaları aparan Fatih, Yavuz və Oruç Reis araşdırma gəmilərinə əlavə olaraq 4 gəmi göndərməyə hazırlaşdığı anlaşılmaqdadır. Türkiyə öz qitə sahəsində nə edəcəyinə qərar vermə haqqına sahibdir. Türkiyə, Türk xalqının və Kipr türklərinin haqlarını və mənfəətini nəyin bahasına olursa-olsun qoruma-ğa qərarlıdır. Qısası, xarici işlər nazirimiz sayın Mövlud Çavuşoğlunun ifadə etdiyi kimi, Avropa İttifaqı rum və yunan cütlüyünün basqılarının nəticəsi dağıdıcı qərarlar vermiş olub, bunların tətbiq olunması çətin görünməkdədir. Avropa İttifaqının önümüzdəki günlərdə sağlam mövqedən çıxış edərək, bu qərarlardan vaz geçəcəyini gözləyirik”.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019



# Ölkənin qocalıq şəkli

Zamin HACI
zaminhaci@gmail.com

"Əgər mən cavan olsaydım insan axmaqlığının tarixini yazardım, Makkeyb dağına dırmaşardım və başımın altına həmin əlyazmanı qoyub kürəyi üstdə uzanardım. Və torpaqdan həmin o insanları heykələ çevirən mavi-ağ zəhərdən götürərdim. Mən də heykələ dönərdim və kürəyi üstdə uzanıb dişlərimi qorxunc şəkildə ağardar, uzun burnumu göstərərdim - ÖZÜNÜZ BİLİRSİNİZ KİMƏ!"

*(Kurt Vonnehut, "Pişik beşiyi")*

**Deyir bütün dünyada, sosial şəbəkələrdə təzə tətbiq yayılıbdır, camaat özünün qocalıq şəklinə baxır. İndiki şəklini verirsən proqrama, qocalanda hansı sifətə düşəcəyini göstərir. Hətta amerikalılar bu fırıldaqda rus kəşfiyyatının barmağının ola biləcəyini xəbərdar edibdir. (Guya özləri onun-bunun məlumatını oğurlayanda, dünyanın işlərinə əl qatanda daha yaxşıdır). Mən sosial şəbəkələrdə yoxam, eşitdiyimə görə bu tətbiq internet çəpərinin bizim tərəfə düşən hissəsində də populyarmış.**

Əcəb işdir. Görün bizim xalq necə optimistdir. Hamısı fikirləşir ki, haçansa qocalacağıq. Həkimlər dərdimizə əlac edəcək, dolanışıq, iqtisadi durum bəy kefində yaşamağımıza imkan verəcək, nəticədə uzun ömür sürəcəyik. İndi 20-30-40 yaşı olanlar (qocalığına "baxmaq" istəyənləri bu aralıqda zənn elədim, hər halda ümid edirəm 70-80 yaşlılar daha sonranı görmək istəməzlər) gələcəyə nikbin baxırlar. Əslində isə bizə qocalıq şəklimizi göstərən proqram yox, başqa tətbiqlər lazımdır.

Misal üçün, "əgər vəzifəyə keçsəm boynum neçə santimetr yoğunlayar" tətbiqi. Yaxud elə bir proqram kəşf etməliyik ki, gözümüzün doymaq limitini tapsın. Qonşu hansı marka maşını alsa dözə bilərəm, hasarım başqalarından nə qədər hündür olmalıdır, canım sənə desin, müxalifətdə neçə il qalmaq imkanım var, telekanalizasiyada işləsəm deyəcəyim yalanın həyasızlıq ölçüsü qırmızının hansı tonunda olar və sairə. Yoxsa qocalmaq... Bu çox mənasız şeydir. Özü də mən internetdə bir-iki məşhurun guya qocalıqda necə olacağına baxdım. Açıq görünürdü ki, proqram indiki sifəti çox süni formada qırışdırıb, saçı-saqqalı ordan-burdan ağardıb, yolub adamlara "qocalıq portreti" düzəldir. Qocalıq isə heç vaxt belə gəlmir. Elə o qırışlar çox zaman dərd-bəladan, qocalıqdan xəbər vermir ki. Yanılmıramsa, Mark Tvenin bir müdrik fikri var, deyir qırışlar sənin ən çox güldüyün yerlərdə yaranır. Şəxsi fikrimə gələndə, məncə üz qırışları ilə beyin qırışları arasında hardasa bir qarşılıqlı əlaqə var və indiki dünyada üzünü hamarlatmağa can atanların çoxu həm də içəridəki qırışları düzəldir. (Ümid edirəm beyin qırışlarının rolu haqda əlavə bilgi verməyə ehtiyac yoxdur).

Bir də qocalanda nə sifətdə olmağımıza yox, indi hansı üzlə yaşadığımıza baxsaq yaxşıdır. Dünən internetdə dövlət idarəsinə rəhbər qoyulan şəxsin tenderi öz keçmiş şirkətinə "uddurması" haqda yazı gözümə dəydi. Yaxud, görürsən kimsə dövlət universitetinə rektor qoyulur, dərhal prorektor, köməkçi, dekan, kafedra müdiri, hətta binanın qapıçısı kimi işlərdə qohum-əqrəbası, bacanaq-yeznələri, əmi-dayıuşaqları, xalaqızı, bibioğlu, bacınəvəsi, nə bilim, yengə və kirvələri peyda olur. Elə bil ayrı adam yoxdur. Ancaq irad bildirsən cavabı hazırdır: "Balaca ölkədir, nə edək, hamı qohum çıxır". Özümdən uydurmuram, olmuş hadisədir. Vaxtilə bir məmuru yerlibazlıqda qınamışdılar, demişdi: "Vallah, kimi vəzifəyə qoyuruqsa sonradan bilirik həmin regiondandır. Sən demə ölkə əhalisinin yetmiş faizi oralıymış".

Əgər 30 il qabaq Azərbaycanın indiki sifətini bizə təsvir edən proqram olsa, onu düşmən təxribatı sayar, kompüteri sındırardıq. (O vaxt hələ mobil telefonlar yox idi). Çünki biz onun belə "qocalacağını" fikirləşmirdik. Xəyallarımızdakı Azərbaycanın üzünə ən azı Qarabağ ləkəsi düşməmişdi. Orda-burda sızanaqlar çıxırdı, xırda cızıqlar vardı, ancaq biz onları yeniyetmə, gənc, müstəqilliyin toy otağına, gərdəyinə girməyə hazırlaşan ölkəmiz üçün müvəqqəti, keçici hal olaraq görürdük.

**İndi üzümüzə baxacaq üzümüz yoxdur. Bu tətbiqi çox amansız proqramçı yapıb...**



# Ermənistan əks-inqilab astanasında - Paşinyan onu iqtidar etmiş xalqı hədələdi

## Hökumət qüvvələri ilə toqquşmada ilk dəfə qan töküldü; **erməni baş nazirdən narazı kütləyə təhdid:** "Güc tətbiq edəcəyik!.."; **erməni mediası:** "İnqilabçılar etirazçılara çevrilir..."

**Ermənistanda 8 may 2018-ci il inqilabı ilə bağlı məyusluq artır. Nikol Paşinyan hökumətindən normal iş yerləri, yaxşı güzəran gözləyən əhali indi heç vaxt olmadığı qədər xəyal qırıqlığı yaşamaqdadır. Bu xəyal qırıqlığı getdikcə özünü hökumətə qarşı daha fəal etiraz aksiyalarında göstərməyə başlayıb. Necə deyərlər, Paşinyan iqtidarı "gerisayım" mərhələsinə girib.**

**Belə etirazların birində - Paşinyanın doğulduğu İcevanda srağagün yerli vətəndaşlarla polis arasında toqquşma olub. Xəbər verdiyimiz kimi, 600 nəfərə yaxın nümayişçi mərkəzi yolu kəsərək nəqliyyatın hərəkətini dayandırıb. Həmin yol Gürcüstan-Ermənistan dövlətlərarası magistral olduğundan polis dərhal hərəkətə keçib və bu zaman da qarşıdurma yaşanıb. 13 nəfər yaralanıb. Ermənistanın İstintaq Komitəsi olayla bağlı cinayət işi qaldırıb, bir neçə nəfər saxlanılıb. Daha 6 nümayişçidən başqa yerə getməməklə bağlı iltizam alınıb.**

Qeyd edək ki, narazı kütlə İcevandakı taxta-şalban sexlərinin işçiləri olub. Etirazçılar hökumətdən meşələrdə ağac kəsilməsinə qoyulan qadağanın ləğvini tələb ediblər. Çünki buradakı əhalinin yeganə gəlir mənbəyi məhz bu sexlərdir.

Vəziyyətin gərginliyi Ermənistan hökumətini də hərəkətə gətirib. Baş nazir Nikol Paşinyan aksiyaya və daha sonra baş verənlərə sərt münasibət bildirib. "Dünənki insidentin bütün günahkarları, həmçinin qanunsuz ağac kəsilməsinin təşkilatçıları ciddi cəzalandırılacaqlar", - deyə o, facebook səhifəsində yazıb və ötən il onu hakimiyyətə gətirmiş kütləni faktiki şəkildə ilk dəfə hədələyib. "Heç bir qanunsuz kompromis olmayacaq və bunu hamının bilməsi vacibdir. Bu vəzifəni hüquq-mühafizə orqanları qarşısında dəqiq şəkildə qoyuram. Heç kim hökumətlə şantaj dilində danışmaq haqqına sahib deyil", - deyə baş nazir bildirib.

*****

İcevan insidenti ölkədə ciddi rezonans doğurub. Əksər təhlilçilər bunu inqilabdan sonra hökumətlə xalq arasında ilk böyük, qan tökülməsi ilə müşayiət olunan olay kimi qiymətləndiriblər. Bu xüsusda 1in.am saytının analitiki Sərkis Arsruninin şərhi diqqət çəkir. "Yeni Müsavat"ın məlumatına görə, müəllif öncə hadisəni Ermənistanda inqilabın qələbəsindən sonra vətəndaşla polis arasında ən böyük toqquşma adlandırır. "Ölkədə inqilabdan sonra talançılığın yolu bağlanıb. Lakin İcevan əhalisinin böyük əksəriyyəti boş-bekar və yoxsulluq içindədir, faktiki, meşənin hesabına yaşayır. Bu da keçən ilki inqilabi prosesin iştirakçılarını etirazşılara çevirib", - deyə o qeyd edib.

Erməni analitik daha sonra yazır: "Aksiyada yüzlərlə adam iştirak edib. Bunun özü ən azından, onu göstərir ki, ölkədə hazırda olduqca aşağı keyfiyyətli idarəçilik var və hökumət tədricən reallıqdan qopmaqdadır. İcevanda dünənki (srağagünkü-red.) dramatik hadisələr inqilab komandasında ciddi böhran indikatorudur. Üstəlik, hakimiyyət məhz Paşinyanın vətənində simvolik bir şillə yedi. Məsələ ondadır ki, əgər ölkədə baş verən inqilab özü ilə yeni dəyərlər sistemi gətirmirsə, o zaman təbii ki, belə vakuumlar yaranır - hansı vəziyyətdən ki, bir yandan keçmiş korrupsionerlər, digər tərəfdən isə marginallar istifadə edə bilərlər. Romantizm mərhələsi artıq bitib. Bundan sonra insanlar çətin ki, Paşinyan və komandasının gözəl şüarlarına qulaq assınlar. Əgər düzgün nəticə çıxarılmasa, yaxın zamanlarda kortəbii etirazlar qaçılmaz olacaq. Özü də böyük miqyasda".

*****

"İyulun 17-də Ermənistan başqalaşdı. Həmin gün hakimiyyətlə əhali arasında çat sürətlə böyüməyə başladı və bu çat göstərdi ki, cəmiyyətin Paşinyan hökumətindən gözləntilərinin çin olması mümkün deyil. Məlum olur ki, ötən il xalq diktatoru devirib, ölkə rəhbərliyinə təkcə diletant və populist birisini deyil, həm də diktator xüsusiyyətlərindən xali olmayan birisini gətirib".

Bunu isə armenianreport.com-da siyasi icmalçı Tevoş Arşakyan İcevan insidentini şərh edərkən yazıb. "O gün 2018-ci ilin aprelindən bu yana hakimiyyətlə xalqın ən iri toqquşması baş verdi. Ötən il hakimiyyəti özü zorla ələ keçirən hökumət etirazçıların üzərinə repressiv qurumları göndərdi. Halbuki, belə vəziyyətdə Paşinyan şəxsən hadisə yerinə getməli, insanlarla söhbət eləməli, hamını qane edən kompromis tapmalı idi", - deyə erməni şərhçi qeyd edib.

Şərhin bundan sonrakı hissəsində Paşinayan qarşı daha sərt ittihamlar yer alıb: "Paşinyanın yaddaşı qısadır. Ötən il o, Sərkisyan rejimini devirəndə hökumətlə şantaj dilində danışmağı özünə rəva bilə bilirdi. Ona görə ki, arxasında kütlənin gücünü hiss edirdi - hansı kütlə ki, yoxsulluq və dərəbəylik illərinə görə Serji və komandasını parça-tikə eləməyə hazır idi. İndi isə situasiya sürətlə dəyişir - özü də inqilabçıların xeyrinə yox. O səbəbə Paşinyan açıq-aşkar narazılarla hədələyici, diktator dilində danışmağa keçir: "İmkan verməyəcəyik", "Cinayət məsuliyyətinə cəlb edəcəyik", "İnqilab düşmənləri məhv ediləcək" və s. Bunu o, zorən edir, çünki ürəyində başa düşür ki, İcevanda adamlar küçələrə çıxılmazda qaldıqları üçün axışıblar: əgər onlara meşəni qırmaq yasaq edilsə, o zaman yüzlərlə ailə çörəksiz qalacaq və sonuncu mövcudluq vasitəsini itirəcək. Bəs onlar bundan sonra necə yaşasınlar? Axı son il ərzində sıravi erməninin həyat şəraiti zərrəcə yaxşılaşmayıb. İnqilabçı hakimiyyət hələ də sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmağı, ölkəyə sərmayələr cəlb eləməyi və yeni iş yerləri açmağı bacarmayıb".

*****

**Beləcə, cəmi bir il öncə bəh-bəhlə "məxməri inqilab" edib qurtulduqlarını düşünən ermənilər təzədən küçələrə axışmağa başlayıblar. Çünki qurtuluş üçün üsyan, inqilab, hakimiyyət dəyişikliyi yox, ilk növbədə Dağlıq Qarabağ problemini həll edib qonşu Azərbaycan və Türkiyə ilə anlaşmaq lazımdır. Əks halda, Ermənistanda inqilablar, əks-inqilablar hələ çox silkələyəcək...**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

# Rusiya-Türkiyə yaxınlaşması: müttəfiqliyin tarixi əsası varmı?

## Qabil Hüseynli: "Bu iki ölkə heç vaxt müttəfiq olmayıb"



**Rusiya ilə yaxınlaşma Türkiyəni tarixi müttəfiqləri ilə üz-üzə qoyub. ABŞ Türkiyəni F-35 proqramından çıxarmaq üçün düyməni basıb. Respublikaçı senatorlar Ankaraya qarşı sanksiyaları tətbiq etməyə çağırıblar. Məlumata görə, Florida ştatından olan senator Risk Skott və İndiana ştatından olan Todd Youngin Türkiyəyə qarşı sanksiyaların tətbiqini nəzərdə turan qanun layihəsini Senata təqdim ediblər.**

Qanun layihəsində Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksləri alması ABŞ-ın təhlükəsizlik maraqlarına "birbaşa və dəhşətli bir təhdid" olaraq xarakterizə edilir. Qanunvericilər Tramp administrasiyanı "Sanksiyalar Yolu İlə Amerikanın Düşmənləri ilə Mübarizə" (CAATSA) qanunu çərçivəsində sanksiyaları tam tətbiq etməyə çağırıblar. Həmçinin Rusiyanın ABŞ-a təşkil etdiyi təhdidin müzakirə edilməsi və Türkiyənin NATO-ya üzvlüyü üzərində düşünülməsi üçün NATO-nun toplantının keçirilməsi çağırışı qanun layihəsində yer alıb.

Bundan başqa, Senat Xarici Əlaqələr Komitəsinin demokrat üzvlərindən Bob Menendez Türkiyənin F-35 proqramından çıxarılmasının kifayət etmədiyini bildirib. Senator prezident Trampın CAATSA çərçivəsində Türkiyəyə sanksiyalar tətbiq etməyəcəyi halda Senata Vaşinqton rəhbərliyini buna məcbur edən qanun layihəsi təqdim edəcəyini söyləyib.

CAATSA ABŞ prezidentindən 12 sanksiyadan beşini seçməyi tələb edir. Bunlara vizaların məhdudlaşdırılması, ABŞ-da yerləşən İxrac-İdxal Bankına girişin qadağan edilməsi, ABŞ maliyyə sistemi ilə əməliyyatların qadağan edilməsi və ixracat lisenziyalarının ləğvi kimi sanksiyalar daxildir.

Bir sıra siyasi analitiklər Rusiya ilə bu qədər yaxınlaşmanın Türkiyə üçün ciddi problemlər yaratdığını qeyd edirlər və köhnə müttəfiqlərlə münasibətlərin pozulmasının zərərli olduğunu hesab edirlər. Bəziləri isə Rusiya ilə müttəfiqliyin Türkiyəyə daha vacib olduğunu bildirirlər. Bəs tarixdə Türkiyə-Rusiya münasibətləri necə olub, bu iki ölkənin müttəfiqlik etdiyi zamanlar olubmu?

**Tarixçi professor Qabil Hüseynli** qeyd etdi ki, Rusiya-Türkiyə münasibətləri Rusiya Federasiyası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərdir, bu iki ölkə heç vaxt konkret blokda, ittifaqda müttəfiq olmayıblar: "Münasibətlər ikitərəfli münasibətlər çərçivəsində olub. Osmanlı və Rusiya imperiyalarının zamanına nəzər salsaq görürük ki, onların münasibətləri müttəfiqlik münasibətləri olmayıb. Əksinə, 16-cı əsrin sonlarından 20-ci əsrin əvvəllərinə qədər Osmanlı və Rusiya imperiyaları arasındakı əlaqələr kifayət qədər gərgin olub və tərəflər arasında bir neçə dəfə müharibə baş verib. Buna baxmayaraq, 1920-ci illərin əvvəllərində Türkiyə İstiqlaliyyət müharibəsi ərzində bolşevik rus hökumətinin türk inqilabçılarına dəstək verməsi nəticəsində rəsmi Moskva və Ankara arasındakı münasibətlər yaxşılaşmışdı. Osmanlı hökuməti 3 mart 1918-ci ildə bolşevik Rusiya hökuməti və İttifaq dövlətləri arasında imzalanmış Brest-Litovsk sülh müqaviləsini imzalayan tərəflərdən biri olmuşdu. 1921-ci ilə qədər davam edən Rusiya vətəndaş müharibəsindən qalib çıxan Vladimir Lenin Mustafa Kamalın rəhbərlik etdiyi Türk Milli Hərəkatını özünə dost kimi görürdü və məhz elə buna görə də Leninin başçılıq etdiyi hökumət Rusiya İmperiyasının Şərqi Anadoluya və türk boğazlarına olan ənənəvi iddialarından əl çəkmişdi. 1920-1922-ci illərdə Sovet hökumətinin türk inqilabçılarına qızıl və silah-sursatla kömək etməsi Türkiyənin müstəqillik uğrunda xarici işğalçılarla apardığı mübarizədə ona böyük köməklik etdi. 16 mart 1921-ci ildə imzalanmış Moskva müqaviləsi nəticəsində Rusiya SFSR Türkiyənin müstəqilliyini formal olaraq tanıyan ikinci ölkə kimi tarixə keçdi. İki ölkə arasındakı münasibətlərdə ilk gərginlik 1936-cı ilin iyulunda Montrö Konvensiyasının imzalanması məqsədilə təşkil olunan danışıqlar zamanı meydana çıxdı. Belə ki, bu müqavilə nəticəsində türk boğazları üzərində nəzarət tamamilə Türkiyənin əlinə keçirdi. Lakin ikinci dünya müharibəsinin başa çatması ilə birlikdə Sovet hökuməti Türkiyəyə qarşı ərazi iddiaları irəli sürmüşdü. Tərəflər arasındakı münasibətlərin ən aşağı səviyyədə olduğu Soyuq müharibə dövründə Türkiyə 1952-ci ildə NATO-ya üzv olub və Varşava Müqaviləsi Təşkilatına qarşı mövqe nümayiş etdirib".



**Q.Hüseynli onu da bildirdi ki, Rusiya-Türkiyə münasibətlərində yeni mərhələ SSRİ dağıldıqdan sonra başlayıb**: "1991-ci ildə SSRİ-nin dağılmasının ardınca Türkiyə və Rusiya arasındakı münasibətlər əhəmiyyətli şəkildə inkişaf etməyə başladı və bu iki ölkə bir-birinin ən böyük ticari tərəfdaşı halına gəlmişdi. Bir çox türk şirkətinin Rusiya ərazisində fəaliyyətə başlaması ilə birlikdə Rusiya da Türkiyənin ən böyük enerji təchizatçısına çevrilmişdi. 1990-cı illərdə Türkiyə rusiyalı turistlər üçün əsas istirahət məkanı olub və bu gün də belədir. Sovet İttifaqının dağılmasının ardınca iki ölkə arasındakı münasibətlər inkişaf etməyə başladı. 25 may 1992-ci ildə Türkiyənin baş naziri Süleyman Dəmirəlin Moskvaya səfəri zamanı Rusiya-Türkiyə hökumətlərarası razılaşma imzalandı. 2010-cu ilin may ayında Rusiya prezidenti Dmitri Medvedyevin Türkiyəyə səfəri zamanı viza tələblərinin qaldırılması da daxil olmaqla tərəflər arasında bir neçə razılaşma imzalandı. Həmçinin, Türkiyənin Mersin şəhərində Rusiya tərəfindən atom elektrik stansiyasının inşası ilə əlaqədar bir neçə milyard dollar dəyərində müqavilə imzalanıb. 2015-ci ilin noyabrında Suriya-Türkiyə dövlət sərhədi yaxınlığında Rusiyaya məxsus döyüş təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra gərginləşən münasibətlər 2017-ci ildən etibarən yenidən normallaşdı və nəhayət, indiki səviyyəyə gəlib çatdı".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İki təxribat



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Emosiyalar yatdıqca bir daha əminlik yaranır ki, Azərbaycan əsgəri Keşikçidağ məbədində onu təxribata çəkmək istəyənlərlə tam doğru olaraq təmkinli davranıb. Düzdür, hələ indi də 14 iyulda bir qrup gürcünün, amma bəlkə də "5 larilik gürcü"lərin nümayişkaranə şəkildə təxribat törətməsinə atəşlə cavab verməyi zəruri sayırlar. Bu sırada hətta bəzi siyasət adamlarını, deputatları da görəndə adam heyrətlənir. Doğrudanmı onlar nə baş verdiyini, hansı planın işə salındığını bilmirlər?**

Bəli, sərhəd toxunulmazdır, sərhəd pozucusuna qarşı atılmalı addımlar yox e, görülməli tədbirlər var, havaya atəş açılmasından tutmuş, gülləni təpəsinə sıxmağa qədər. Amma Bakı və Tiflis prinsipial olaraq razılaşıb ki, sözügedən ərazi ilə bağlı danışıqlar aparılmalı və birgə komissiya son qərarını verməlidir.

Hələ aprelin 3-də rəsmi Tiflis bəyan etmişdi ki, Gürcüstan və Azərbaycan arasındakı dövlət sərhədinin 34 faizinin mübahisə predmetidir. Delimitasiya üzrə dövlət komissiyaları səviyyəsində isə sərhədin 66% razılaşdırılıb. Əslində "qaşınmayan yerdən" və heç zərurət olmadığı halda qan çıxaran şəxslərin sırasında Gürcüstan prezidenti Salome Zurabaşvili də var. Amma indi Gürcüstan hökuməti də anlayır ki, səhvə yol veriblər.

Hətta iş o yerdə çatdı ki, Gürcüstan parlamentinin deputatı baş verənlərə görə Azərbaycan əsgərindən üzr istədi! Bu, adi məsələ deyil. Əsgərimiz nizamnaməyə uyğun olaraq atəş açsa, bir-iki təxribatçını öldürsə, reaksiya necə olacaqdı, fərqindədirmi bəziləri?! O halda Azərbaycanın düşmənlərinin lampasına nöyüt töküləcəkdi, dərhal başlayacaqdılar ki, "Azərbaycan əsgəri əliyalın sakinlərə, ibadət üçün gələnlərə atəş açdı", daha nələr...

Xatırlayaq: Türkiyə hətta onun hava məkanına daxil olduğu üçün Rusiya qırıcısını vurdu, iki dövlət arasında nələr yaşandı? Münasibətləri bərpa üçün nə qədər uzun yol qət edildi? Hər halda, bölgədəki əsas müttəfiqimizlə münasibətlərimizin gərginləşməsi yaxşı heç nə vəd etmir. Təbii ki, gürcülər də anlamalı və təxribatçıları durdurmalıdır. Özü də təxribatçı dəstə Keşikçi dağa hazır gəlmişdi, elə ifadələr işlədirdilər ki, əsgər dözməsin, silahın tətiyini çəksin. Üstəlik, videokameralar da çəkirdi. Dərhal dünyaya yaymaq və Azərbaycanı çətin vəziyyətə salmaq planı var idi. Təkcə bu da deyildi. Gürcüstan və Azərbaycan arasında qan davası salıb, Avropaya uzanan iri layihələrin üstündən xətt çəkmək, NATO-ya üz tutan Tiflisi müşkülə salmaq, Avropa Birliyi ilə saziş imzalamaq istəyən Bakıya ciddi problemlər yaratmaq...

Çoxgedişli plan masadadır heç şübhəsiz. Cənubi Qafqazın iki ölkəsinin əraziləri zəbt olunub, yenə də Qərbə inteqrasiyada maraqlıdırlar. Növbəti elə sarsıdıcı zərbə vurmaq istəyirlər ki, bir daha özlərinə gələ bilməsinlər. Bu da milli-etnik qarşıdurma ola bilər. Təəssüf ki, Gürcüstan hökuməti hələ də təxribatçıların izinə düşüb onları ifşa etməyə tələsmir.

Azərbaycan əsgəri dünyanın gözü qarşısında nəinki rəzil olmadı, hətta böyüklük, cəsurluq nümayiş etdirdi. Dövlətinə arxalandı. Budur, dövlət rəsmilərimiz gərəkəni deyirlər. Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Qaranlıq dairələrin dövlətlərarası münasibətlər müstəvisində söz sahibinə çevrilməsinə imkan vermək olmaz və belə cəhdlərə birdəfəlik son qoyulmalıdır" deyib. Kifayət qədər ciddi mesajdır. Azərbaycan prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov isə "bu cinayəti törədən şəxslər məsuliyyətə cəlb edilməli və qanunların tələbinə uyğun cəzalanmalıdırlar" deyib. İndi söz qarşı tərəfindir. Normal münasibətlər istəyirlərsə, buyursunlar, gərəkəni etsinlər!

Təbii ki, əsgərimiz növbəti dəfə eyni şəkildə davranmayacaq, bu dəfə eyni təxribat olsa, qanun tətbiq ediləcək, çünki güzəşt bir dəfə ola bilər. Amma o halda kimsə Azərbaycanı günahlandıra bilməyəcək. Dünyada bu kimi metodlardan geniş istifadə olunur. İnformasiya davasında biz qalib gəldik, Gürcüstan tərəfdən gələn təxribatçıları isə heç kim qoruya, himayə edə bilmədi, rəzil oldular.

**Bəli, Şəmkir zastavasında əsgərimiz bütün təhriklərə rəğmən, tətiyi sıxmadı - haqlı olaraq. Amma qonşu Qazax rayonunun Ermənistanla üzbəüz mövqedəki əsgərimizi hədəf seçdi düşmən. Təsadüfdürmü? Məncə, yox. Gərginlik ocağı yaratmaq istəyənlər üçün fərqi yoxdur, olmasın Gürcüstan-Azərbaycan sərhədi, olsun Ermənistan-Azərbaycan sərhədi. İstənilən halda atəş açılmalıydı, açıldı da. Davamı da gələ bilər bu təxribatların. Amma şübhə etmirəm ki, Dövlət Sərhəd Xidməti düşmənin təxribatlarını cavabsız qoymayacaq. Hər halda, Ermənistan Gürcüstan deyil...**

# DİM qəbul imtahanlarının nəticələrini açıqladı

**Dövlət İmtahan Mərkəzi (DİM) II və III ixtisas qrupları üzrə iyulun 7-də keçirilən qəbul imtahanlarının nəticələrini elan edib. Mərkəzdən Musavat.com-a bildirilib ki, abituriyentlər imtahanın nəticələri haqqında məlumatı, həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.**

İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 28699 abituriyentdən 408 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 15 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

İmtahanda III ixtisas qrupu üzrə 1 abituriyent (Bakı şəhəri, 192 saylı orta məktəbin məzunu), ona təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verib və maksimal nəticə - 400 bal toplayıb. İmtahanın nəticələri ilə bağlı müraciətlərə baxılması üçün Dövlət İmtahan Mərkəzində (Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28) 22, 23 və 24 iyul 2019-cu il tarixlərində saat 10:00-dan 17:00-dək Apelyasiya Komissiyası fəaliyyət göstərəcək.



Apelyasiya Komissiyasına müraciət etmək istəyənlər 20, 21, 22 iyul tarixlərində Dövlət İmtahan Mərkəzi (Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28) və ya onun regional bölmələrində şəxsiyyət vəsiqələrini təqdim etməklə ərizə doldurub qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apelyasiya Komissiyasına müraciət edə bilməyəcəklər. Abituriyentlər Komissiyaya müraciət etməmişdən əvvəl öz səhifələrində cavab kartı və cavab vərəqinin ön, arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olsunlar. Apelyasiya Komissiyasına müraciət üçün ərizə yazarkən iddia olunan tapşırıqların nömrələrini dəqiq göstərmək lazımdır. Apelyasiya Komissiyasında abituriyentin iştirakı (şəxsiyyət vəsiqəsi və iş nömrəsini təqdim etməklə) vacibdir. Abituriyent ilə yanaşı valideynlərindən biri şəxsiyyət vəsiqəsini təqdim etməklə Apelyasiya Komissiyasının iclasında iştirak edə bilər.

Xatırladaq ki, müsabiqə şərtlərini ödəyən abituriyentlərin ixtisas seçimi iyulun 24-dən avqustun 6-dək aparılacaq.



## Diqqət! Bakı bulvarında yenə ilanlar peyda olub

**Ötən il olduğu kimi bu il də Dənizkənarı Milli Parkda ilanlar peyda olub. BAKU.WS xəbər verir ki, ilanların bulvar ərazisində görünməsilə bağlı sosial şəbəkələrdə məlumatlar yayılıb. Bu barədə "Facebook" səhifələrində video görüntü paylaşılır. Videoda bir nəfər bulvarda əlində gürzə tutub. O, ilanı bulvar ərazisində görüb və onu tutub.**

Qeyd edək ki, ötən il yay aylarında da bulvar ərazisində ilanlarla bağlı məlumatlar yayılmışdı.

# "İnşallah, mən də deputat olaram..." - Elza Seyidcahan

## "Sənətimin heç 50 faizini göstərmirəm"



**Bəstəkar-müğənni, əməkdar artist Elza Seyidcahan "Yeni Müsavat"a müsahibə verib. Onunla söhbəti təqdim edirik:**

***- Elza xanım, bu günlərdə özünüzə ad günü keçirdiniz. Gələn qonaqlardan, hədiyyələrdən razı qaldınızmı?***

- Ad günüm çox gözəl keçdi. Təmtəraqlı etməsəm də, qeyri-adi tədbir oldu.

***- Mərasimlə bağlı fotolardan belə anlamaq olurdu ki, şou-biznes nümayəndələrini dəvət etməmişdiz. Özünüz dəvət etmədiniz, ya onlar gəlmədi?***

- Tədbirdə ən yaxınlarım, ailəm idi. Şou-biznesdən demək olar ki, heç kimi dəvət etmədim. Sözün düzü, dəvət etməyə utandım. Kim eşitdisə gəldi. Həm tədbirdən əvvəl, həm də sonra çoxlu sayda təbriklər, hədiyyələr aldım.

***- Bəs ən gözəl hədiyyəni kimdən aldınız?***

- Bütün hədiyyələr gözəl idi. Ümumiyyətlə ad günümdə sevdiyim bütün insanlar yanımda idi. Bu mənim üçün ən gözəl hədiyyədir, dəyərdir. Qeyd etdiyim kimi bu ad günümü sadə keçirsəm də, planımda var ki, gələn ad günümü təmtəraqlı keçirim.

***- Son zamanlar həm mərasimlərə, həm də efirlərə bacınız Rasimə xanım ilə birgə qatılırsınız. Səbəb nədir?***

- Ümumiyyətlə, biz hər zaman bir yerdə olmuşuq. Hətta konservatoriya illərində də bir yerdə oxumuşuq. Lakin sonra bacım ailə həyatı qurdu və Amerikaya köçdü. Lakin gördüyünüz kimi sənət elə bir şeydir ki, onu atmaq olmur. Mənim bacım da peşəkar musiqiçi, ifaçıdır. Bəli, artıq birlikdə toylara gedir, efirlərə çıxırıq. Hətta birlikdə layihələrimiz də var ki, yaxın vaxtlarda onları da təqdim edəcəyik.

***- Hazırda isti yay günlərini yaşayırıq və şou-biznes əhlinin əksəriyyəti artıq istirahətdə, dincəlməkdədir. Bəs siz nə zaman istirahətə çıxacaqsınız? Bu barədə planınız nədir?***

- Mən çalışarkən istirahət edirəm, öz işimdən zövq alıram. Düşünürəm ki, bəzi işlərimi qaydasında saldıqdan sonra ölkəmizin gözəl guşələrindən birinə istirahətə yollanım.

***- Bəs xarici ölkəyə getməyi düşünmürsünüz? Adətən şou-biznes əhlinin istirahət üçün əsasən xarici ölkəyə üstünlük verdiyinin şahidi oluruq.***

- Bəli, baxıram sevinirəm ki, imkanları var, dincəlirlər.

***- Yəni sizin də xarici ölkədə dincələ bilməməyinizə maddiyyat səbəbdir?***

- Yox, sadəcə vaxtım yoxdur. Bildiyiniz kimi, mən peşəkar bəstəkaram, klassik əsərlərim, mahnılarım var, onların üzərində işləməliyəm.

***- Son vaxtlar sanki şeirdən uzaq düşmüsüz. Yeni şeirlərinizə rast gələ bilmirik.***

- Yox, yenə də şeir yazıram. Məsələn, bu günlərdə "Adamsız evlər, evsiz adamlar" adlı şeirimin üzərində çalışıram. Daha bir neçə şeirim də olacaq. Şeirlərim hər zaman maraqla qarşılanır. Məsələn, "Əşyalarım" şeirini əməkdar artist Hüsniyyə Mürvətova ifa etdi. Həmçinin Pantomima Teatrının aktrisası Leyla xanım şeiri çox gözəl bədiiləşdirdi və hər kəs tərəfindən bəyənildi.

***- Bu günlərdə xalq artist Brilliant Dadaşova rüşvətxor məmurlara mahnı həsr etdi və ictimaiyyətdə heç də birmənalı qarşılanmadı. Sizin münasibətiniz necə oldu? Ümumiyyətlə, nə vaxtsa siz də məmurlara şeir və yaxud mahnı həsr etməyi düşünürsünüzmü?***

- Düşünürəm ki, Brilliant xanım ümumiyyətlə dünyada olan rüşvətə qarşı oxudu. Təəssüf ki, bəzən bunu başqa yerə yozanlar da tapılır. Pis məmurlarla yanaşı dövlətin, xalqın qayğısına qalan məmurlar da var. Onları vəzifəyə gətirəndə ümid edirlər ki, xalqın, dövlətin qayğısına qalacaqlar. Buna əməl edən olduğu kimi, etməyən də var. El arasında belə bir söz var, "meşə çaqqalsız olmaz". O ki, qaldı mənə, ümumiyyətlə diqqət yetirəndə görərsiniz ki, bütün şeirlərimdə tənqid var.

***- Məmurlardan söz düşmüşkən, 2015-ci ildə deputatlığa namizədliyinizi irəli sürdünüz. Sizi yenə də namizəd kimi görəcəyik?***

- Allah bilir, bəlkə də. Niyə də olmasın. İnanıram ki, mən də buna nail olaram, vətənimə, dövlətimə xidmət edərəm. Əgər xalq məsləhət görərsə, seçərsə bunu özümə borc bilərəm.

***- Qarşıdan gələn parlament seçkilərində namizəd olacaqsınız?***

- İnşallah. Zamanında görkəmli bəstəkarımız Qara Qarayev və digər tanınınmış bəstəkar, musiqiçilərimiz də deputat olub, millət vəkili seçilib.

***- Təxminən bir ay sonra mərhum xalq artisti İlhamə Quliyevanın da anım günü olacaq. Hər kəsə məlumdur ki, İlhamə xanım həyatda olarkən özünə çox təmtəraqlı doğum günü keçirər, ətrafına ən tanınmış şou-biznes əhlini toplayardı. Vəfatından sonra çox az adam onun anım gününü xatırlayır və yaxud yada salır. Siz necə, bu günə qədər nə vaxtsa onun qəbrinin üstünə getmisizmi və yaxud anmısızmı?***

- Əlbəttə. Keçən də ad günündə gedib onun qəbrini ziyarət etmişəm. Vəfat edəndə də cənazəsinin üstünə ağ çiçəklər düzmüşdüm. Hətta evimdə ehsan da verirəm, buna jurnalistlər də şahid olub. Yeni daim xatırlayıram, anıram.



***- Bu yaxınlarda həm də çox gözəl konsert proqramı ilə pərəstişkarlarınızın qarşısına çıxdınız. Bu konsertin davamı da olacaqmı?***

- Ümumiyyətlə mənim bütün konsertlərim həmişə möhtəşəm keçib, hər kəs uzun müddət onun haqqında danışıb, yaddaşlarda qeyri-adi qalıb. Hətta övladlarımın da ad gününü mərasimlərini də qeyri-adi, maraqlı, layihə keçirirəm. Bütün bunların hamısı mənim öz ideyamdır və mən demək olar ki, sənətimin heç 50 faizini göstərmirəm.



Sonuncu konsertimə gəldikdə isə mən bunun üçün çox çalışdım, əziyyət çəkdim, böyük xərclərim oldu. Deyərdim ki, hələ bu günə qədər heç kəs bu cür konsert keçirə bilməyib.

Amma bilirsiniz ki, bu cür konsert keçirdikdə biz pul qazanmırıq, əksinə, xeyli xərclərimiz olur. Təsəvvür edin, konsertdən sonra hələ də bu günə qədər çalışıb, borclarımı ödəyirəm.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019



# İrəvanın Bakıya qarşı "ikili oyunu" - düşmənin məkrli hədəfi

## İşğalçı ölkənin baş nazirinin aylardır davam edən sərt ritorikasının arxasındakı gizlinlər; Paşinyanın "sülhpərvər" mövqeyinin yayıldığı gün sərhəddə silahlar işə düşdü...

**Vaxtaşırı təxribatlar törətməklə dinc danışıqlara zərbə vuran Ermənistan növbəti dəfə "sülhməramlı mövqe" nümayiş etdirib. Baş nazir Nikol Paşinyan "Azadlıq" radiosunun erməni xidmətinə verdiyi müsahibəsində Azərbaycana mesajlar verib.**




**"İrəvanla Bakı arasında "qaynar xətt" işləyir, lakin bu, təəssüf ki, qurbanların olmayacağına zəmanət vermir"**, deyən Ermənistanın baş naziri ardınca bildirib ki, danışıqların konkret nəticələrə gətirməsi üzərində iş gedir: "Nəyə görə danışıqların konkret nəticəsi yoxdur? Beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüşlərdə mən vəziyyəti təsvir edib, tərəqqinin olmamasını izah etmək istəyəndə deyirəm ki, bir səbəb var. Mən Ermənistanın baş naziri seçilərkən bildirdim ki, Qarabağ məsələsinin həlli üçün elə variant lazımdır ki, Ermənistan, Qarabağ və Azərbaycan xalqları üçün qənaətbəxş olsun. Bu, müəyyən mənada misli görünməmiş bəyanatdır, belə ki, Ermənistanın heç bir rəhbəri deməmişdi ki, həll Azərbaycan xalqı üçün də qaneedici olmalıdır".

**Paşinyan əminliklə ifadə edib ki, bu, danışıqlarda tərəqqi üçün ciddi əsas yaradır.** Virtualaz.org-un xəbərinə görə, baş nazir əlavə edib ki, kimsə Azərbaycan üçün qənaətbəxş həllin Ermənistan üçün yolverilməz olacağını düşünə bilər. "Kimsə belə düşünürsə, o, nə Qarabağ xalqını, nə Ermənistan xalqını, nə də ümumilikdə erməni xalqını tanımır".

Qeyd edək ki, bundan əvvəlki dönəmlərdə N.Paşinyan gah ifrat radikal bəyanatları ilə diqqət çəkib - hətta Sərkisyan-Köçəryan cütlüyünü də kölgədə qoyub - gah da sülh bəyanatları səsləndirməklə özünü "mələk" rolunda göstərməyə çalışıb. Hətta yumşaq Qarabağ bəyanatlarının qarşılığında N.Paşinyana daxildən hücumlar edilib, rəqibləri onu xəyanətdə ittiham ediblər. Bu dəfə hələlik Qarabağ klanının reaksiyası məlum deyil, ancaq heç şübhəsiz ki, revanşa cəhd edən cinayətkar qruplaşma növbəti dəfə Paşinyana hücum edəndə baş nazir ritorikanı növbəti dəfə dəyişəcək və sərt mövqedən çıxış edəcək. N.Paşinyan o şəxsdir ki, Dağlıq Qarabağ ətrafındakı rayonların belə, geri qaytarılmasını mümkün saymır, hətta Xankəndidəki separatçı rejimin danışıqlar masası arxasında əyləşdirmək üçün cəhdlər göstərir. Belə olan təqdirdə onun Azərbaycan xalqının maraqlarından çıxış etməsinin arxasında mütləq bir oyun və məkrli plan var.

**Yeri gəlmişkən, elə N.Paşinyanın həmin açıqlaması yayılan gün Ermənistan növbəti təxribata əl atdı.** Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzinin yaydığı məlumatda deyilir ki, 18 iyul 2019-cu il tarixdə saat 00:20 radələrində Ermənnistan Silahlı Qüvnvələrinin bölmələri tərəfindən Ermənistanın Nonyemnbernyan rayonunun Zorakan kəndi istiqamətindən iri çaplı silahlardan atəş açılmaqla atəşnkəs rejimi pozulmuş, Qazax rayonunun II Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqeləri atəşə tutulub. Düşmən cavab atəşi ilə susdurulnub. Hadisə zamanı Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunnlanrının "Qanzax" sərhəd dəstəsinin sərhəd döyüş məntəqəsində dönyüş növbəsində xidmət aparan əsgər Ceyhun Baynranmov yaranlanıb.

**N.Paşinyanın bu açıqlamasından sonra Ermənistan-Azərbaycan sərhədində təxribatın törədilməsi digər qüvvələrin də maraqlarına xidmət edə bilər.** Mümkündür ki, Paşinyanın yumşaq tövrü bəzi qüvvələri narazı saldığından aranı qızışdırmaq istəyirlər. Ancaq eyni zamanda Paşinyan diqqəti daxildəki proseslərdən yayındırmaq üçün "atəş" əmri verə bilər. Bu halda özünün "sülhməramlı" mövqeyinin arxasında gizlənə bilər. İstənilən halda, baş verənlərə görə məhz Ermənistan hakimiyyəti məsuliyyət daşıyır.

Bu arada Ermənistan mətbuatı öz vətəndaşlarını guya 17 iyul axşamı Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan istiqamətindən Vayocdzor əyalətinin Yelpin kəndini atəşə tutduğuna inandırmağa çalışıb (Axar.az). Azərbaycan Müdafiə Nazirliyinin rəsmi şəkildə faktı təkzib etməsinə baxmayaraq, erməni təbliğatı əksini iddia etməyə davam edir. Hətta Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan sonradan "öyrənib" ki, güllələrdən biri Yelpin kəndinin sakinlərindən birinin evinin damına tuş gəlib. Həmçinin o, iddia edir ki, kənd istiqamətində atəş aşağı intensivlikdə olub və iriçaplı silahdan edilməyib. Ermənistanın Analitik.am nəşrinin "hadisə yeri"ndən etdiyi fotoreportajdakı şəkillərin iddialarla uyğunsuzluğu isə dərhal nəzərə çarpıb. Göründüyü kimi, erməni tərəf həm təxribat törədir, həm də Azərbaycanı günahlandırıb özünü "məsum" göstərməyə çalışır. Özü də bütün bunlar dövlət sərhədi boyunca baş verir. Təbii ki, səbəbsiz deyil...

"Ermənistan indi Azərbaycanla informasiya müharibəsi aparmağa çalışır. Onlar belə dezinformasiya yaymaqla beynəlxalq ictimaiyyətə Azərbaycan tərəfinin atəşkəsi pozan, bölgədə gərginliyi yaradan bir ölkə olaraq göstərməyə çalışırlar". Bu sözləri Axar.az-a açıqlamasında hərbi ekspert, polkovnik Şair Ramaldanov Ordumuzun guya Naxçıvan istiqamətindən erməni kəndlərini atəşə tutması ilə bağlı erməni mətbuatında yayılan xəbərlərə münasibət bildirərkən deyib. O qeyd edib ki, Azərbaycan belə yalan bəyanatlara qarşı hazırlıqlı olmalıdır: "Biz bütün baş verənlərə nəzər salsaq görərik ki, cəbhədə vəziyyət gərginləşməyə doğru gedərkən, Ermənistan mətbuatında ölkəmizə qarşı müxtəlif formada belə yalan məlumatlar yazılır. Bu məlumatlar həm daxili auditoriya, həm də xarici ölkələr və təşkilatlar üçün nəzərdə tutulub. Ermənistan tərəfi çalışır ki, Azərbaycanı aqressor kimi təqdim etsinlər. Lakin onlar illərdi eyni ssenari ilə hərəkət etsə də, hər dəfə də səyləri boşa çıxır".

Hərbi ekspert onu da bildirib ki, Azərbaycana atəşkəsi pozmaq lazım deyil: "Ona görə ki, bizim torpaqlarımız işğal altındadır və biz belə kiçik şeylərə vaxt aparmaq əvəzinə döyüş əməliyyatları aparıb, öz torpaqlarını işğaldan azad edərik. Bunun üçün kifayət qədər hərbi gücümüz və hüququmuz var. Bu günə qədər atəşkəsi pozan ancaq Ermənistan tərəfi olub. Biz hələ ki, onları cavab atəşi ilə susdururuq. Azərbaycan Ordusu atə.kəsi pozmayıb və pozmayacaq da, şərait yetişdiyi andaca torpaqları azad edəcək".

Təxribatlar isə bununla bitmir və işğal zonasında da davam edir. Bu günlərdə Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu rejimin "komandanı" hesab edilən Karen Abramyan Kəlbəcər istiqamətindəki təmas xəttində görünüb.

**Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu rejimin başçısı sayılan Bako Saakyan isə Ağdam rayonunun "Tiqranakert" adlandırılmış Şahbulaq ərazisindəki Qarabağ xanı Pənah xanın qalasında geniş tərkibli səyyar müşavirə keçirib.** Xankəndidəki erməni nəşrlərinin yaydığı məlumata görə, qondarma qurum rəhbərliyinin müşavirəsində "dövlət naziri", müdafiə, təhlükəsizlik, fövqəladə hallar, kənd təsərrüfatı və s. sahələr üzrə rəhbər məmurlar iştirak edib.

**Nəhayət, növbəti təxribat xəbəri: Ermənistan silahlı qüvvələri Ağdam rayonunun cəbhə xəttində yerləşən Çıraqlı kəndini atəşə tutub.** Düşmən elə N.Paşinyanın nağıl danışdığı gün axşam və növbəti günün səhəri Çıraqlı istiqamətində yerləşən qoşunların təmas xəttində atəşkəs rejimini pozub. Düşmən əsas hədəf kimi mülki əhalini seçib. Lakin xəsarət alan olmayıb. Mərmilər cəbhə kəndində evlərin dam örtüyünə və hasarlarına dəyib.

Məhəmməd Əsədullaazadə "Yeni Müsavat"a dedi ki, Ermənistan baş naziri Nikol Paşinynan daima beynəlxalq konyukturanı aldatmaq və manipulyasiya etməklə məşğul olur, çünki Qarabağ münaqişəsinin nizamlanmasında maraqlı deyil: "Onun səsləndirdiyi fikirlər heç də bizim maraqlarımıza xidmət etmir. Çünki Qarabağdakı separatçıları da tərəf kimi tanınmasını irəli sürür. Ona görə də bu açıqlama sadəcə, Minsk Qrupunun həmsədrlərinə və beynəlxalq təşkilatlara ünvanlanıb, guya münaqişənin həllində Azərbaycanın maraqlarının da nəzərə alınacağını qeyd edir. Bu, Paşinynanın həyata keçirdiyi aldadıcı genişdir və öz hakimiyyətinə qarşı tənqidlərin qarşısının alınmasına yönəlib. O dediklərində səmimi olsaydı, ilk növbədə Ermənistanla sərhəddə atəşkəsin qorunmasını təmin edərdi. Hesab edirəm ki, Ermənistanla dövlət sərhədində hərbçimizin vurulması birbaşa Paşinyan iqtidarının təlimatları ilə reallaşır. Hadisə işğal olunmuş ərazilərdə baş versəydi, o halda, bunu maraqlı qüvvələrin işi kimi xarakterizə etmək olardı. Amma burada Qarabağdan kənarda, dövlət sərhədində erməni tərəfinin kobud şəkildə təxribatından söhbət gedir".

M.Əsədullazadə də təsdiqləyir ki, Paşinyan ikili oyun oynayır: "Sözdə sülhdən danışır, əməldə isə silaha əl atmaqla sadəcə münaqişənin həllində müharibə ehtimalını yaxınlaşdırır. Qeyd edim ki, Paşinyan ona qarşı daxili etirazlar baş qaldırarsa, o halda diqqəti Azərbaycana qarşı yönəltmək üçün daxili auditoriyaya bu kimi xitablar edə bilər. Son günlərdə Paşinyana qarşı etirazlar baş verdi, nəticədə biz bunun cəbhədə ermənilərin təxribata getdiyini gördük. Demək, Paşinyan cəbhə xətti ilə daxili tarazlığı qorumağa çalışır. Ona görə də Azərbaycan mümkün nəticəyə hesablanan proseslərə start verməlidir. Artıq erməni tərəfi ilə ikitərəfli rabitə əlaqəsinin də əhəmiyyəti yoxdur. Onlar özlərinin daxili siyasi hakimiyyətini qorumaq və Qarabağ münaqişəsində status-kvonu saxlamaq üçün bu metoddan yararlanmağa çalışır. Belə olmasaydı, ermənilər cəbhədə maksimum təxribatdan çəkinərdi. Yalnız öz maraqları olanda bundan istifadə edirlər. Rəsmi Bakı belə bir əlaqədən imtina etməli və Paşinyanın ikili oyunların qarşı hərəkətə keçməlidir".

**N.Paşinyan "gah nala, gah mıxa" vurduğu məqamda Qarabağda süni məskunlaşma həmçinin ermənilərin doğub-törəməsi davam edir. 2019-cu ilin yanvar-iyun aylarında işğal zonasında daha 973 erməni dünyaya gəlib. Ermənilər bu ərazilərdə daha çox doğub-törəməyə, Azərbaycana qarşı möhkəmlənməyə cəhd göstərir. Erməni baş nazir nağılı həmin erməni körpələrə oxusa, daha normal görünərdi...**

YENİ MÜSAVAT
N 89 (7259) 26 aprel 2019

# ABŞ-ın İrəvana dəstəyinin 2 şərti var: biri Qarabağ...

## Ekspert: "Paşinyanın Ağ Evə dəvət edilməməsi Ermənistan hakimiyyətini ciddi narahat edir"

**Ermənistandan birdən-birə üç rəsmi nümayəndə heyəti - baş nazirin müavini Tiqran Avinyan, xarici işlər naziri Zöhrab Mnatsakanyan və parlamentin spikeri Ararat Mirzoyan eyni vaxtda, lakin ayrı-ayrılıqda ABŞ-da səfərdə oldular. Bildirilir ki, Rusiyadan Nikol Paşinyan hökumətinə təzyiq amili, Moskvadan xoflanmaq da İrəvanın üç nümayəndə heyətini eyni vaxtda ABŞ-a göndərməyə məcbur edib.**

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a bildirdi ki, Ermənistan baş naziri Nikol Paşinyanın hazırda apardığı siyasət nə Qərb tərəfindən nə də Rusiya tərəfindən birmənalı qarşılanmır: "Çünki eyni vaxtda iki stulda oturmaq, balans siyasəti qurmaq planı fiaskoya uğrayıb. Ona görə ki, bu ölkə müstəqil siyasətə və manevr edəcək iqtisadi gücə malik deyil. Paşinyan Qərbin verdiyi xüsusi ilə Vaşinqtonun siyasi dəstəyi ilə inqilabla hakimiyyətə gəlsə də indi ona həmin siyasi dəstək verilmir. Buna səbəb Paşinyanın Rusiya ilə strateji əlaqələri qoruyub saxlayacağı və Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda Moskva ilə koordinasiyalı şəkildə çalışması oldu. Paşinyanın bu siyasətinə baxmayaraq, Moskva ona etibar etmir, hərbi dəstək istisna olmaqla heç bir iqtisadi və siyasi dəstək vermir. Kreml yalnız öz geosiyasi maraqları kontekstində Ermənistana hərbi yardım edir. Paşinyana qarşı olan Qarabağ klanına isə Moskvadan dəstək var. Hesab edirəm ki, Paşinyanın Rusiyaya reveransları müsbət nəticə vermədi, Kreml onu qəbul etməməkdə israrlıdır. Paşinyan inqilabla hakimiyyətə gəldiyi və komandasında Qərbə bağlı adamlar çoxluq təşkil etdiyi üçün Kremlin maraqlarına cavab vermir. Ümumiyyətlə, Paşinyan artıq Kremli özünün hakimiyyəti üçün təhlükə görür. Ona görə də özünə siyasi dəstək almaq və hakimiyyətini qorumaq üçün ABŞ-a üz tutub. Komandasının üzvlərini Vaşinqtona dəstə ilə göndərir və az qalırlar Vaşinqtona yalvarsınlar. Şübhəsiz ki, ermənilər ABŞ rəsmiləri ilə görüşlərdə Rusiya təhlükəsi ilə üz-üzə qaldıqlarını, hakimiyyətlərini gücləndirmək üçün Vaşinqtondan dəstək umduqlarını dilə gətiriblər".



**Ekspertin sözlərinə görə, parlamentin spikeri, xarici işlər naziri və baş nazirin müavininin səfərləri Nkil Paşinyanın əsas ümid etdiyi səfərlərdi:** "Paşinyan bu cür səfərlər həyata keçirilməsi ilə Moskvadan olacaq təzyiqlər qarşısında hakimiyyətinin immunitetini gücləndirməyə çalışır. Hazırda Kreml ciddi şəkildə Paşinynanın devrilməsi üçün zəmin yaranmasını gözləyir. Bunu erməni baş nazir bilir. Vaşinqtonda bu kimi məsələlərin də müzakirəsi şübhəsizdir. Amma Vaşinqtonun da şərtləri var. Bu şərtlər İranla sərhədi bağlamaq və Qarabağ münaqişəsinin nizamlanmasında Vaşinqtonun təlimatlarını-Boltonun planını yerinə yetirmək. Təbii ki, Paşinyan ABŞ-ın geosiyasi maraqlarını nəzərə almasa ona dəstək verilməyəcək. Necə ki, bir ildən artıqdır verilməyib, bundan sonra da elə olacaq. Artıq Vaşinqtonda Paşinyan iqtidarını Serj Sərkisyan hakimiyyəti ilə eyni görürlər. Ona görə də ABŞ İrəvandan əlini üzüb. Ermənistanın yalvarışları müsbət nəticə verməyəcək. Rusiya yenə də Ermənistan üzərində təsirini qoruyub saxlamaqla daha da Paşinyana təzyiqi artıracaq".

**Politoloq qeyd etdi ki, Paşinyan bir müddət demokratik imicinin hesabına ABŞ və Avropadan şərtsiz maliyyə yardımları və siyasi dəstək almasına şərait yaradacağını düşünürdü. Amma gözlənilənin tam əksi oldu:** "ABŞ və Brüssel Paşinyanı tam bir siyasi kurs həyata keçirərək qonşularla normal münasibətlər qurmağa çağırdı. ABŞ-ın Ermənistanla bağlı siyasəti inqilabdan bir ildən artıq vaxt keçməsinə baxmayaraq birmənalı olaraq qalıb. ABŞ-dan vəd olunan işğalçıya maliyyə yardımı və siyasi dəstək verilmir. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun regiona səfəri çərçivəsində İrəvanda Paşinyan iqtidarına ünvanladığı mesaj hələ də aktuallığını saxlayır. Ancaq Vaşinqtonun İrəvandan gözlədiyi siyasət reallaşmır. Bir tərəfdən Paşinyana qarşı daxili siyasi sabitliyin kövrək olaraq qalması, iqtisadi sferada geriləmə, mümkün xarici yardımların alınmaması və ABŞ-ın Paşinyanı Ağ Evə dəvət etməməsi Ermənistan hakimiyyətini ciddi narahatlıq edir. Proseslər bu istiqamətdə davam edərsə, Paşinyanın siyasi dayaqaları zəifləyəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Azərbaycanlı deputat Tiflisdəki son durumu şərh etdi

## Mahir Dərziyev: "Sonuncu aksiyada 20-30 nəfər iştirak edirdi"

**Üç həftədən çoxdur ki, Gürcüstanda parlamentin qarşısında aksiya keçirilir. Sonuncu aksiyaların tələbi daxili işlər naziri Giorgi Qaxarianın istefası idi.**



Mahir Dərziyev

Onu da qeyd edək ki, ötən həftə Gürcüstanın müxtəlif yerlərində, ayrı-ayrı səbəblərdən aksiyalar keçirilib. Eləcə də ötən həftə Gürcüstanda azərbaycanlıların sıx yaşadığı Marneuli rayonunda etiraz aksiyası baş tutdu.

Bələdiyyə binasının qarşısında baş tutan aksiyada İmir kənd sakinləri iştirak etdilər.

Sakinlər güclü dolu nəticəsində İmir kəndinə dəyən ziyanın aradan qaldırılmasını tələb ediblər. Onların sözlərinə görə, doludan ziyan görən bəzi kəndlərə yardım göndərilsə də, İmir kəndi diqqətdən kənarda qalıb.

Bələdiyyə binası önünə gələn Marneuli rayon rəhbəri Zaur Darğallı, deputatlar Ruslan Hacıyev və Tamaz Naveriani sakinlərə İmir kəndindəki vəziyyətdən xəbərdar olduqlarını deyiblər. Onlar bildiriblər ki, dolunun Marneuli rayonunda yaratdığı fəsadların aradan qaldırılması məqsədilə xüsusi komissiya yaradılıb və yaxın zamanlarda İmir kəndinə də müvafiq yardım göstəriləcək.

Tiflisdəki aksiyalara gəlincə isə bildirilir ki, meydana çıxaraq etiraz aksiyası keçirənlərin sayı xeyli dərəcədə azalıb. Bu barədə "Yeni Müsavat"a Gürcüstan parlamentinin azərbaycanlı deputatı Mahir Dərziyev məlumat verib. O bildirib ki, artıq "Rustavi 2" telekanalının baş direktoru Niko Qvaramiya da istefaya göndərilib: "Aksiyaların necə və hansı səbəbdən başladığı hər kəsə məlumdur. Lakin artıq aksiya edənlərin sayı xeyli dərəcədə azalıb. Sonuncu aksiyada 20-30 nəfər iştirak edirdi. Əsas tələblər o idi ki, həbs edilən aksiya iştirakçıları azad edilsin, proporsional seçki sistemi bərpa olunsun. Eyni zamanda daxili işlər nazirinin də istefası tələb olunurdu. Proporsional seçki ilə bağlı partiyaların da təklifi var. Bu ayın sonuna doğru parlamentin növbədənkənar sessiyası gözlənilir. Artıq proporsional seçki sistemi parlamentin müzakirəsinə çıxarılacaq. Aksiya iştirakçılarından həbs edilənlərə gəlincə isə onların da çoxu demək olar ki, azad edilib. Daxili işlər nazirinin istefası isə bizim üçün yolverilməzdir. Yeni daxili işlər naziri Qaxarian qanunla üzərinə düşən vəzifəni yerinə yetirib. O, faktiki olaraq dövlət çevrilişinin qarşısını alıb. Bu zaman tətbiq olunan güc də adekvat idi. Yəni bizim partnyorlarımız və digər hüquq müdafiəçiləri bu prosesləri incələdikdən sonra onların da qənaəti belə oldu ki, burada heç bir qeyri-adekvat, qanundankənar güc olmayıb. Qanun daxilində müəyyən olunmuş vasitələrdən istifadə edilib. Nəticədə Qaxarian mahiyyət etibarı ilə dövlət çevrilişinin qaşısını alıb. Onun istefası isə heç bir məntiqə sığmır. Strasburqda Avropa İnsan Haqları Məhkəməsi müxalifətin əsas telekanalı olan "Rustavi-2" ilə bağlı qərar qəbul etdi. Qərarda göstərildi ki, kanalla bağlı Gürcüstan məhkəmələrinin çıxardığı qərar qanunidir. Telekanal vaxtilə Saakaşvilinin zorla qəsb etdiyi ilk sahibinə qaytarılır. Faktiki olaraq göründü ki, Gürcüstan məhkəmələri yalan qərar çıxarmayıblar. Bu, eyni zamanda onu da göstərdi ki, Gürcüstan məhkəmələri Avropa qarşısındakı bir testdən də keçdilər. Artıq aksiyalar öz mənasını itirir. Əslində "Rustavi-2" kanalı bizim məhkəmələrin qərarı ilə öz əvvəlki sahibinə qaytarılmışdı. Anaq bizim müxalifət böyük hay-küy qaldırmışdı ki, bu, mediaya qarşı təzyiqdir. Nəticədə qərarın icrası dayandırılmışdı. Artıq Avropa İnsan Haqları Məhkəməsi də eyni qərarı verdikdən sonra kanalla bağlı qərar da həyata keçirildi".

**Deputat bildirib ki, aksiyaçılar faktiki olaraq öz vətənlərinə qarşı müharibə elan ediblər:** "Bundan əvvəl də Gürcüstana rus deputat gəlmişdi. Ancaq həmin zaman heç bir hay-küy qaldırmadılar. Çünki ümid edirdilər ki, nə isə edəcəklər, ancaq seçkidə də uduzdular. İndi isə çalışırlar ki, ölkəyə qarşı xarici təzyiqlər artsın. Aksiyanın təşkilatçıları ölkədə sosial vəziyyətin gərginləşməsini istəyirlər. İlkin hesablamalara görə, rus turistlərin gəlməməsi və Rusiyaya aviareyslərin ləğv edilməsi, Gürcüstana təqribən 500 milyon dollar ziyan vurub. Bu, ilkin hesablamalardır. Sonradan daha böyük rəqəmlər ortaya çıxa bilər. "Rustavi-2" kanalındakı aparıcının qeyri-etik sözləri də ona hesablanmışdı ki, Rusiya yeni bir sanksiyalar tətbiq etsin. Ancaq bu da baş tutmadı. Hazırda otelçilik, taksi fəaliyyəti ilə məşğul olanlar ölkəmizdə bu kimi hadisələrin nəticəsində xeyli itkiyə məruz qaldılar. Bu isə xalq üçün zərərlidir. Belə olduğu halda aksiyaçılar nəyə nail olmaq istəyirlər, məlum deyil.

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019



# Qarpız sahələrdə niyə qalıb?

## Nazirlikdən fermerlərə mühüm təklif

**Qarpız mövsümü başlanar-başlanmaz regionlardan istehsalçı fermerlərin narazılıqları da başlayıb. Belə ki, bu günlərdə ölkə mətbuatında bir sıra bölgədə qarpızın sahələrdə qaldığı, alıcı tapılmadığı bildirildi. Bərdə rayonunun Lənbəran kəndində təsərrüfat sahibləri qarpız alıcısının azlığından narazıdır. Onlar qarpıza qoyduqları mayanı belə çıxara bilmədiklərini deyirlər (Xəzərxəbər.az).**

Bu rayon şirin və keyfiyyətli qarpızı ilə tanınsa da, məhsulun satılmaması bu sahəyə marağı azaldır. Hazırda paytaxt bazarlarında qarpızın 1 kiloqramının qiyməti 40 qəpik civarında olsa da, rayonda sahələrdə 20 qəpiyə təklif olunan qarpıza alıcı tapılmır. Fermerlər deyirlər ki, əgər vəziyyət belə davam edərsə, gələn il qarpız əkməyəcəklər.

*Fermerlərin bu narazılığı nə qədər əsaslıdır? Dövlət, aqrar sahəyə məsul olan Kənd Təsərrüfatı Nazirliyi fermerlərin öz məhsullarını bazara çıxarması üçün hansı dəstəyi verə bilər?*

"Yeni Müsavat"ın suallarını cavablandıran **kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli** bildirir ki, ötən il bazarlarda qiymətlərin əlverişli formalaşması ilə əlaqədar olaraq cari ilin əkini üçün qarpız sahələrinin artırılmasına böyük maraq olub: "Bir il ərzində sahələr 300 hektardan çox artırılıb, fermerlər tərəfindən toxumçuluq işinin gücləndirilməsi üçün yerli toxumlardan istifadə ilə yanaşı xarici ölkələrdən də bizim iqlimə uyğunlaşmış toxumlar gətirilərək əkilib. Nəticədə bu ilki mövsümdə qarpız bazara 0.50-0.60 qəpik həddində daxil oldu ki, bu da istehlakçıların marağına uyğun idi. Amma bu qiymət örtük altında yetişdirilən məhsullara aid idi, artıq iyulun əvvələrindən açıq sahədən məhsul yığılmağa başlayıb və bazardakı qiymətlər alıçılar üçün bir az da əlverişli mövqeyə gəlib. İki gün əvvəl paytaxtın ən böyük topdansatış məntəqələrində qarpız 0.23-0.32 qəpikdən təklif olunub, pərakəndə bazarda isə qiymətlər 0.35-0.45 qəpik həddində müəyyənləşib. İyulun 19-na, yəni bu günə olan məlumata görə isə qarpızın səyyar satışlarda qiyməti 0.25-0.30 qəpik, yemiş isə 0.35-0.40 qəpikdir. Hesab edirik ki, əhalinin alıçılıq qabiliyyəti baxımından bu il qarpız-yemişin qiyməti çox əlverişlidir. Əsas istehsalçı rayonlarımızda fermerlərlə apardığımız söhbətlərə əsasən deyə bilərik ki, sahədəki qiymət torpaq adamlarını qane edir. Üstəgəl, bu ilki mövsüm məhsuldarlıq baxımından qarpız üçün uğurlu olub. Əgər ötən il fermer sahədən 18-20 ton məhsul yığırdısa, bu il 25-30 ton yığır. Bu il sahələrdən təxminən 364 min tondan çox qarpız-yemiş yığılacaq. Bu, ötən ilkindən təxminən 15 min ton çoxdur".

**Ekspertin sözlərinə görə, qarpız-yemiş yeganə məhsuldur ki, nə idxalda, nə də ixracda rol oynayır:** "Cüzi həcmdə xaricə satırıq, elə o qədər də alırıq".

**Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Hüseynov** isə deyir ki, hazırda qarpızın sahələrdən alış qiyməti 20-25 qəpik, paytaxt və böyük şəhərlərdə pərakəndə satış qiyməti 35-40 qəpikdir: "Ötən il iyul ayında qarpızın pərakəndə satış qiyməti 70-90 qəpik təşkil edirdi. Yerində isə 40-45 qəpiyə satılırdı. Əlverişsiz iqlim şəraiti ötən il məhsulun az olmasına səbəb oldu ki, bu da yüksək qiymətə gətirdi. Bu il həm əlverişli iqlim şəraiti var, həm də 2018-ci illə müqayisədə daha 300 hektar artıq sahədə qarpız əkilib, ümumilikdə qarpız sahələrinin həcmi 15100 hektar təşkil edir. Qarpız sahələrində orta məhsuldarlıq ötən ilə görə (158 s/ha) 2 sentner yüksəkdir və hazırda 160 s/ha təşkil edir. Bostanın kənarında qarpızın 1 kiloqramının 20 qəpiyə satılması fermerlər üçün əlverişli qiymət hesab olunmalıdır. Buna görə də hansısa fermerin 20 qəpiyə narazı qalması əsassızdır. Digər tərəfdən, açıq sahələrdən qarpız yığımı 4-5 gündür başlanıb. Azərbaycanda heç vaxt qarpız 4-5 gün ərzində tamamilə satılmayıb. Bu, elə bitkidir ki, bir neçə həftə ərzində satılır. Fermerlər niyə indidən məhsul qaldı deyə narazılıq etsin ki? Məhsulu əkən fermer əvvəlcədən onun satış bazarını da müəyyənləşdirməlidir, bu, bazarın tələbidir".

**Bununla belə, V.Hüseynov qeyd edir ki, hansısa fermer məhsulunu satmaqda çətinlik çəkirsə, Dövlət Aqrar Ticarət Şirkətinə müraciət edərək, təşkil olunan "Kənddən şəhərə" yarmarkalarına qoşula bilər**: "Məhsulu bazara çıxararkən maya dəyərinə təsir edən əsas iki amil var: nəqliyyat xərci və bazarda yer haqqı. "Kənddən şəhərə" yarmarkalarında yer haqqı yoxdur, istənilən fermer öz məhsulunu tam ödənişsiz formada gətirib burada sata bilər. Nəqliyyat xərcinə gəldikdə, biz bu məsələdə də həqiqətən məhsulunu bazara çıxara bilməyən istehsalçıya dəstək verə bilərik. Yeganə şərtimiz budur ki, istehsalçı öz məhsulunu yarmarkada bazar qiymətinə deyil, daha ucuz satsın. Yəni bu gün pərakəndə satışda qarpız 40 qəikdirsə, bizim yarmarkada bu, 25-30 qəpikdən yüksək ola bilməz. Kimi bu qiymət qane edirsə və həqiqətən Bakıya məhsul gətirməyə imkanı çatmırsa, müraciət eləsin Dövlət Aqrar Ticarət Şirkətinə, ona dəstək verilsin".

❑ **DÜNYA, "Yeni Müsavat"**

# Xəzərin hasar problemi nə vaxt çözüləcək?

## ƏMDK vətəndaşları qanunvericiliyin tələblərinə əməl etməyə çağırır

**Yay fəslinin Azərbaycanda illərdir ki, gündəmə dönə-dönə qaytardığı mövzulardan biri də "Dəniz və hasar" problemidir. İllərdir ki, Abşeron yarımadasının Xəzərlə sərhədləri boyunca 5-6 metr hündürlükdə, bir neçə kilometrlik hasarlar çəkilib və bu gün proses davam edir. Dövlət qurumlarının, parlamentdən ayrı-ayrı deputatların çağırışları da kara gəlmir - hasarlar qalır, hasarlanma davam edir.**




Xəzərin hasarlanması problemi parlamentdə ötən il müzakirə mövzusu olmuşdu və millət vəkili, xalq artisti Zeynəb Xanlarova dəniz kənarındakı villa sahiblərinin hasarlarını dənizin ortasınadək uzatdıqlarından danışmış, tədbir görülməsini istəmişdi. 2019-cu ilin yayı da başlayar-başlamaz mövzu yenidən aktuallaşıb. Əmlak Məsələləri Dövlət Komitəsi Xəzər dənizinin 20-50 metrlik sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı nəzarəti daha da gücləndirməsi haqda məlumat yayıb. Komitə bununla əlaqədar olaraq Xəzər dənizinin Bakı şəhərinin Qaradağ, Xəzər, Suraxanı, Binəqədi rayonları, eləcə də Sumqayıt şəhərinin ərazisində olan zonalarında monitorinq qrupları yaradılıb:

"Aparılan monitorinq zamanı Xəzər dənizinin sahilboyu mühafizə zolağı torpaqlarından qanunsuz istifadə halları aşkarlanır. Xəzər dənizinin mühafizə zolağına aid ərazilərini qeyri-qanuni istifadə edən torpaq mülkiyyətçiləri barədə İnzibati Xətalar Məcəlləsinin 248-ci maddəsinə əsasən inzibati protokollar tərtib edilir. Hazırki dövrədək İnzibati Xətalar Məcəlləsinə əsasən təqsirkar şəxslər barədə 80 halla bağlı protokol tətbiq edilib, torpaq sahəsinin zəbt olunması ilə bağlı Cinayət Məcəlləsinin 188-ci maddəsinin əsasən 76 hal barəsində Daxili İşlər Nazirliyinə müraciətlər göndərilib, 39 işlə bağlı məhkəmələrdə iddia qaldırılıb. Qanunla 20-50 metr zolaqda hər hansı tikintinin aparılması üçün xüsusi razılıq olmalıdır. Dəniz sahilinin hasarlama və ya digər üsullarla bağlanılması yolverilməzdir. Hasarlama işləri yalnız qəfəsəli olmaqla uzunluğu 200 metrdən artıq olmamalıdır və hər 200 metrdən sonra dəniz sahilinə 6 metr enində gediş-gəliş yolu saxlanılmalıdır. Xəzər dənizinin (gölünün) Azərbaycana məxsus olan bölməsinin sahilboyu 20-50 metrlik zolağına aid olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə fiziki, vəzifəli və hüquqi şəxslər müvafiq olaraq 4 min manat, 8 min manat və 40 min manat cərimələnir. Həmçinin Cinayət Məcəlləsində Xəzər dənizinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlara münasibətdə vəzifəli şəxslər 7 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulub. Bu hallar torpaq qanunvericiliyinin ciddi şəkildə pozulmasına səbəb olmaqla yanaşı, vətəndaşların Xəzər sahilində istirahət hüququnu da məhdudlaşdırır, bəzən tamamilə mümkünsüz edir. Eyni zamanda sahilboyu ərazilərin qanunsuz olaraq hasarlanması həmin yerin panoramik görünüşünü pozur. Bu isə turizm baxımından mənfi fəsadlara gətirib çıxarır.

Xəzər dənizinin sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı monitorinqlər davam etdiriləcək. ƏMDK vətəndaşları torpaq istifadəçiliyi ilə bağlı qanunvericiliyin tələblərinə əməl etməyə çağırır".

**Hazırda Xəzər dənizində səviyyə dəyişmələri baş verir.** Aparılmış təhlillərə görə, hazırda səviyyə 1 metrdən çox aşağı düşüb. Ekologiya və Təbii Sərvətlər Nazirliyində (ETSN) Ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə bildirib. R.Səttarzadə hesab edir ki, dəniz səviyyəsinin dəyişməsində başlıca amil iqlimi hesab olunur: "Xəzərin su balansının əsasını təşkil edən çayların hövzələrində baş verən iqlim, dəniz səthindən buxarlanma və s. faktorlar dənizdə səviyyənin artıb-azalmasına təsir göstərir", şöbə müdiri qeyd edib.

Onun sözlərinə görə, 1977-ci ildə dənizin səviyyəsi XX əsrdə müşahidə olunmuş ən aşağı həddə qədər azalıb: "Sonradan qısa dövr ərzində (1977-1995-ci illər) 2,5 metr artıb və sonrakı illərdə yenidən azalma müşahidə olunmağa başlayıb".

**Azərbaycanda 2003-cü il yanvarın 13-də Xəzər sahillərində şəxsi evlərin və obyektlərin tikintisini qadağan edən "Azərbaycan Respublikasında Xəzər dənizi sahillərindən istifadəyə dair bir sıra tədbirlər haqqında" sərəncam imzalanıb.** Sərəncama əsasən, Nazirlər Kabineti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Bakı və Sumqayıt şəhərlərinin icra hakimiyyətləri, habelə Abşeron, Siyəzən, Dəvəçi, Xaçmaz, Xızı, Neftçala, Salyan, Lənkəran, Masallı, Astara rayon icra hakimiyyətləri Xəzər dənizi sahillərində 130 metrlik məsafədə tikilən obyektləri sökməli idilər.

**2003-cü il avqustun 4-də isə Azərbaycan prezidenti "Azərbaycan Respublikasında Torpaq Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" qanun layihəsini imzalamışdı.** Hələ də qüvvədə olan həmin qanuna görə, Xəzər dənizinin sahillərinin 80-130 metrliyi dövlətə məxsusdur. Deməli, həmin ərazi satıla və özəlləşdirilə bilməz. Sonradan dəniz sahilində tikililər üçün normativ 30 metr təyin edildi. Hazırda 30 metrlik normativ də pozulub, bir çox rayonların ərazisində dəniz sahilinə, çimərliklərə gediş-gəliş son dərəcə məhdudlaşdırılıb. Vətəndaşların dəniz sahilinə çatımlılığı problemi açıq olaraq qalır.

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019

# Türkiyədə qətlə görə jurnalist həbslərinə Bakıdan reaksiya

**Rusiyanın Türkiyədəki keçmiş səfiri Andrey Karlovun qətlinin TRT-də yayımlanması ilə bağlı araşdırma çərçivəsində 6 mətbuat nümayəndəsi saxlanılıb. Onlardan 5-i TRT-nin əməkdaşıdır. Həbslər TRT-də yayımlanan "Sevda quşun qanadında" serialının 15-ci bölümündə səfir Karlova təşkil olunan sui-qəsdə bənzəyən səhnələr yer almasına görə gerçəkləşdirilib. Serilanın bu bölümü izləyicilər tərəfindən birmənalı qarşılanmayıb.**

Xatırladaq ki, səfir Andrey Karlov 2016-cı il Türkiyədə təşkil olunan "Rusiya türklərin gözü ilə" sərgisində iştirakı zamanı qətlə yetirilib. Hadisəni törədən Mövlüd Mərd Altındaş təhlükəsizlik əməkdaşları tərəfindən öldürülüb.

**Media eksperti, televiziya mütəxəssisi Qulu Məhərrəmli** mətbuat əməkdaşlarının həbsi ilə bağlı "Yeni Müsavat"a deyib ki, televiziyada, mediada çalışan insanlar - rejissor, redaktor, efir adamları istənilən ölkə üçün həssas mövzulara bir qədər ehtiyatla yanaşmalıdırlar: "Türkiyə üçün hazırkı dönəmdə Rusiya ilə münasibətlər ciddi şəkildə önəmlidir. Səfirin öldürülməsi məsələsi çox ciddi olaydır. Bir ölkənin səfirini hamının gözü qarşısında öldürüblər. Ona görə də televiziya əməkdaşları belə məsələlərlə bağlı bir qədər həssas yanaşma sərgiləməlidirlər. Amma media nümayəndələrinin birbaşa həbsini də düzgün saymıram. Hesab edirəm ki, bu, siyasi maraqların ödənməsinə yönəlmiş addımlardır. İnanmıram ki, məhkəmə bunu hansısa hüquq pozuntusu hesab etsin. Türkiyədə teleradio sahəsində ali qurum var və belə məsələlərə baxır. Amma bədii verilişlərdə, bədii materiallarda bu cür məsələlərin olması absurddur. Hansı yazıçıya qadağan etmək olar ki, bu situasiyanı təkrar etmə? İstənilən hadisə model etibarı ilə biri digərinə oxşayır. Televiziyada təsəvvürlər assosativ olduğuna görə yaddaşları tez bərpa edir. Yeni hadisənin modelini tamaşaçıya çatdıra bilir. Gerçəkləşən həbslərdə siyasi motiv özünü biruza verir. Arzuolunmaz situasiyadır. Bədii əsərdə, serialda ölüm, anadan olma, basqın, qarət, qətl və digər həyatda baş verən məsələlər var. Model etibarı ilə bir-birilərinə oxşaya bilərlər".



**Qulu Məhərrəmli:** "Efir adamları ölkə üçün həssas mövzulara ehtiyatla yanaşmalıdır"
**Ələsgər Məmmədli:** "Jurnalistləri daha çox peşə fəaliyyəti ilə yox, çevrilişdə iştirakçılıqla əlaqəli həbs edirlər"

**Qulu Məhərrəmli deyir ki, mətbuat nümayəndələrinin belə məsələlərə görə həbsi doğru deyil:** "Media nümayəndələrinin həbsi Türkiyə qanunlarına nə dərəcədə uyğundur məsələləri də araşdırılmalıdır. Hesab edirəm ki, bu adamların sadəcə, bəxtləri gətirməyib, onların həbsi tezliklə aradan qaldırılacaq".

**Media məsələləri üzrə hüquqşünas Ələsgər Məmmədli** deyir ki, Türkiyədə jurnalistlərin böyük əksəriyyətinin istintaqa cəlb olunması əsasən ha çox 15 iyul 2016-cı ildə baş verən çevrilişə cəhdlə əlaqəlidir: "Jurnalistləri daha çox peşə fəaliyyəti ilə yox, çevrilişə cəhd, çevrilişdə iştirakçılıqla əlaqəli həbs edirlər. Bu baxımdan Türkiyə dünyada ən çox jurnalistin həbsdə olduğu ölkələrdən biridir. Amma Türkiyə jurnalistləri ifadə azadlığına görə deyil, terrora görə həbs elədiyini bəyan edir. Avropa Şurası, Avropa institutları isə əksini söyləyir, ifadə azadlığına basqı kimi qiymətləndirirlər. Bu gün Türkiyədə ifadə azadlığına yönəlik xeyli məsələlər var. Cümhuriyyət Partiyası İstanbul İl başqanına Rəcəb Tayyib Ərdoğana tvitter hesabında həqarətə görə 17 il həbs cəzası çıxarılıb. Düzdür, proses sentyabra təxirə salınıb, amma faktiki qərar verilib. Türkiyədə 3 il əvvəl baş verən fövqəladə hadisə - çevrilişə cəhd demokratik sistem içində qiymətləndiriləcək nəticələr deyil. Jurnalistin, siyasətçinin ifadə azadlığını hansısa çevrilişə cəhdlə əlaqələndirmək doğru deyil".

**Hüquqşünas deyir ki, hökumət belə məsələlərdə diqqətli olmalıdır:** "Bu cür həbslər ölkənin demokratik imicinə zərər verən məsələdir. Həbs olunanlardan biri kürd dilli "TRT 6" kanalındandır. Daha çox həmin media mənsubunu terrorla əlaqələndiriblər. Nə ilə əlaqələndirilməsindən asılı olmayaraq ifadə azadlığına daha dözümlü yanaşılmalıdır. Türkiyəni qardaş ölkə kimi demokratiyada bizdən öndə olduğu bir ölkə kimi görmüşük. Arzumuz da odur ki, Türkiyə həmin formada qalsın və daha da irəli getsin. Geriləməsini heç istəmirik. Türkiyədə həbslərin aydın səbəblərdən deyil, örtülü ehtimallar əsasında gerçəkləşməsi nəticə etibarı ilə Türkiyənin imicinə, bizim Türkiyəyə olan ümidlərimizə ziyan verir".

**Yada salaq ki, 3 il əvvəl Türkiyədə yaşanan, Rusiya səfiri Andrey Karlovun ölümü ilə nəticələnən hadisəni Vladimir Putinin provakasiya adlandırmışdı. Rəcəb Tayyib Ərdoğan Rusiya prezidentinin qənaəti ilə həmfikir olduğunu, səfirin qatilinin Mərd Altındaş adlı polis əməkdaşı olduğunu təsdiqləyib və bu qətldə FETÖ-nün məqsədinin Rusiya və Türkiyə arasına nifaq salmaq olduğunu bildirib.**

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Nazirlikdən "Yeni Müsavat"ın yazdıqlarına reaksiya

## "Vüsal Muradova istədiyi ləvazimatlar yaxın günlərdə təqdim olunacaq"

**"1 il 4 aydır ki, özünüməşğulluq proqramına qoşulmuşam. Dövlətdən bir vətəndaş olaraq "Canon D 800" fotoaparatı, bir də foto-video montaj işlərini görmək üçün noutbuk - "Lenovo Y 520" istəyirəm ki, işləyim. İşsizlikdən ailəm dağılıb, maddi vəziyyətim ağırdır" - Vüsal Muradov ötən ay "Yeni Müsavat"a bu sözlərlə müraciət etmişdi.**




Deyir ki, onu yenidən redaksiyamıza gətirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi rəsmilərinin olduqca ləng addımlarıdır: "2018-ci ilin aprelində özünüməşğulluq proqramına qoşuldum. Proqrama qoşulanda böyük ümidlərim vardı. Düşünürdüm ki, nəhayət, işimi qurub ailəmi dolandıracaq qədər pul qazana biləcəyəm. Bu qədər vaxt keçib, amma işim dalana dirənib. Hər ay vəd verirlər, yaxşı olacaq deyirlər. Bu müddətdə işləsəydim, artıq maddi durumum da düzəlmişdi. Xahiş edirəm nazirlik rəsmiləri mənim məsələmlə maraqlansınlar, nəhayət ki, həll etsinlər..."

**Qeyd edək ki, Vüsal Muradov redaksiyamıza ötən dəfə müraciət edəndə bildirib ki, əvvəllər restoranlarda foto-video xidmətləri göstərib. Onun qəzetimizə dediklərindən sitat:** "Uyğun ləvazimatlarım olmadığından sonradan işsiz qaldım. Özünüməşğulluq proqramına qoşulmaqda məqsədim o idi ki, işə başlamaq üçün ləvazimatları dövlətdən alım. 2018-ci ilin aprelində 1 aylıq kurs keçdilər. Biznes-plan tərtibatını öyrətdilər. Kurs yekunlaşdı, sonda biznes-plan yazdım. Planda mənə fəaliyyət üçün 2 ləvazimat - fotokamera "Canon D 800", (həmin vaxt qiyməti 1600 manat idi) bir də foto-video montaj işlərini görmək üçün noutbuk - "Lenovo Y 520" (qiyməti həmin dövrdə 2200 manat idi) alınmasını yazdım. Qeyd etdiyim ləvazimatlar mənim ortabab fəaliyyətim üçün bəs edirdi, ona görə də biznes planda bu ləvazimatları yazdım. Əslində isə daha professional ləvazimatlara ehtiyacım var. Düşündüm ki, bu ləvazimatlarla pul qazanıb özümə daha professional ləvazimatlar alaram".

**Vüsal Muradov deyir ki, 2018-ci ilin aprelində biznes-planı təqdim edəndən sonrakı dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, Bakı Şəhər Məşğulluq İdarəsində olub**: "Biznes-planı təqdim etdiyimdən düz 8 ay sonra, 2019-cu ilin yanvarında məni Dərnəgül qəsəbəsindəki Məşğulluq Mərkəzinə çağırdılar. Ortaya bir müqavilə qoydular. Özümə də işimə tam yararsız ləvazimatlar - "Canon D 800" əvəzinə "Canon D 400", hansının ki, qiyməti 750 manatdır, bir də "Lenovo Y 520" əvəzinə 800-1000 manat arası qiyməti olan "Lenovo" noutbuku vermək istəyirdilər. Dedim ki, bu ləvazimatlar mənim işimə yaramır. Kameranın göstəriciləri normal çəkilişə imkan vermir, təqdim etdikləri noutbukda çəkdiklərimi də montaj edə bilməyəcəyəm. Çünki montaj proqramları həmin noutbukda sadəcə işləmir. Mənə həmin ləvazimatları biznes-planda yazdığım ləvazimatların qiymətinə, onların adı ilə vermək istəyirdilər. Müqavilədə də mənə 3 min 800 manatlıq ləvazimatların təqdim edildiyi yazılmışdı. Müqaviləni imzalamağımı istəyirdilər. Müqavilədə mənə "Canon D 800", "Lenovo Y 520" təqdim olunduğu yazılsa da, reallıqda mənə daha ucuz qiymətə olan, mənim işimə yaramayan ləvazimatları vermək istəyirdilər. Lakin mən həmin müqaviləni imzalamaqdan imtina etdim. Sənədlərlə mənə 3 min 800 manatlıq, reallıqda isə 1750 manatlıq ləvazimat veriləcəkdi".

**Vətəndaş Vüsal Muradov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə şikayət etdiyini bildirdi:** "Nazirdən başqa hamısının, müavinin, Məşğulluq Xidmətinin rəisi Fuad Musayevin qəbulunda oldum. O mənə vəd etdi ki, problem həll ediləcək. Martda onun qəbulunda olmuşam, bu günə qədər də mənə ləvazimat vermirlər. Maddi sıxıntılar ucbatından ailəm dağılıb. Nazirlikdəki məmurlar get-gələ salmaqla ailəli insanları çıxılmaz duruma salırlar".

**"Yeni Müsavat" əməkdaşı məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Nizami rayon Məşğulluq Mərkəzinin direktoru İlqar Şıxəliyevlə əlaqə saxlayıb. Direktor bildirib ki, vətəndaş Muradova istədiyi ləvazimatlar yaxın günlərdə təqdim olunacaq:** "Standart paketlər var, həmin standart paketlərdən kənara çıxmaq olmur. Vüsal Muradova da standart paket təklif olunur. Lakin həmin paketə daxil olan avadanlıqlar Vüsal Muradovu qane etmədiyindən iyulun 15-də başlanan fərdi yanaşma qaydasında ona istədiyi ləvazimatlar təqdim olunacaq. Bu haqda cənab nazir tapşırıq verib, heç bir problem qalmayıb. Gün söhbətidir, bu gün-sabah, 2-3 günə Vüsal Muradova istədiyi avadanlıqlar təqdim olunacaq".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Elan**

**Muradlı İradə Elşən qızına məxsus "Atabank"dan olan qəbz kitabçası və 2005163782 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır.**

*****

**Xəlilov Sahib Tofiq oğlunun adına olan Bakı şəhəri, N.Nərimanov rayonu, Şahin Mustafayev küçəsi-13, mənzil 2 ünvanın çıxarışı itdiyi üçün etibarsız sayılır.**



# Pirşağıda faciə: evin tək oğlu dənizdə batdı

**Bakının Pirşağı qəsəbəsi çimərliyində 2 nəfər dənizdə batıb. Report-un məlumatına görə, Abşeron rayonunun Məmmədli kəndindən olan gənclər dənizə yollanıblar. Dənizdə çimərkən batma təhlükəsi ilə üzləşən 8 nəfərdən 6-sı xilas edilib. Lakin iki nəfərin həyatını xilas etmək mümkün olmayıb. Onlardan biri evin tək oğludur.**

Az sonra dənizdə batan gənclərdən birinin meyiti tapılıb. Bu, Abşeron rayon Məmmədli kənd sakini, 2002-ci il təvəllüdlü Sadiq Vüqar oğlu Abbasovdur. Onun meyiti müayinə olunması üçün Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Sumqayıt şəhər şöbəsinə yerləşdirilib. Xilasedicilər tərəfindən dənizdə batan digər gəncin meyitinin tapılması istiqamətində axtarışlar davam etdirilir.

YENİ MÜSAVAT
N 152 (7322) 20 iyul 2019

# Marsa getmək istəyənlər ordusu yaranır

## Mars səyahəti barədə bilmədiklərimiz - təhlükə var!

**Marsa uçuş kosmik missiyanın hər bir ekipaj üzvünü radiasiya ilə təmasa görə 2,5 il qocaldacaq. Bu haqda "RİA Novosti"də Moskvada keçirilən Aviakosmik və Ekoloji Tibb adlı konfransın hesabatında məlumat yer alıb. Marsa uzun sürən (üç ilə qədər) uçuş zamanı və uçuşdan sonra maksimum Günəş aktivliyi şəraitində müxtəlif qalınlıqlı radiasiyadan qoruyan alüminium sığınacaqda olan kosmonavtların üzləşəcəyi ümumi radiasiya riski hesablanıb.**

"Sadə şar formalı kosmik aparat və onun içində olan insan bədənini imitasiya edən fantom model əsasında aparılan hesablamalara görə, Marsa iki il müddətli uçuş və geri dönüş zamanı hər bir ekspedisiya üzvü üçün radiasiya riski yaşdan asılı olmayaraq 7,5 faiz təşkil edəcək. Bu isə kosmonavtların ömrünün orta hesabla 2,5 il qısalmasına yol açacaq", - sənəddə qeyd edilir.

Daha öncə isə xəbər verilmişdi ki, Marsda daimi insan koloniyası qurmanın məqsəd qoyulduğu "Mars One" adlı layihədə iştirak etmək istəyənlərin sayı 100 mindən 100-ə endirilib. Layihə çərçivəsində əvvəlcə qırmızı planetə araşdırmalar aparmaq üzrə insansız kosmos vasitəsi göndəriləcək, yük daşınması səfərləri təşkil ediləcəyi planlaşdırılırdı. Məsələn, 7-8 il bundan öncə bu səfərin təxmini tarixi 2018-ci il olaraq göstərilirdi. Daha sonra isə ilk insan uçuşunun 2024-cü ildə olacağı deyildi. Bu səfərə qədər "qırmızı planet"də insan həyatına uyğun mühit yaradılması üçün işlər getdiyi də qeyd olundu.

Marsa ayaq basacaq insanların bu müddətdə ciddi təlim proqramlarından keçəcəyi də göstərilir. Layihənin xərci təxminən 6 milyard dollardır.

Lakin Marsa səfər etmək sözügedən layihənin ən çətin tərəfi deyil. Marsın atmosferinin planetimizə nisbətən 1% olduğunu düşünsək, astronavtlar ilk növbədə oradakı təzyiqdən qurtulmağın yollarını tapmalıdırlar. İkinci çətinlik isə insanın yaşaması üçün lazımlı olan oksigendir ki, o da Marsda çox deyil. Planetdəki radiasiya nisbətinin olduqca yüksək olduğunu deyən mütəxəssislər bunun kosmonavtların xərçəngə yoluxmaq riskini xeyli dərəcədə artırdığını deyir ki, bu da üçüncü məqamdır.

**Marsa səfər 500 min dollar olacaq**

Bu il fevralın 13-də səfər qiymətləri ilə bağlı məlumatlar da açıqlanıb. Elon Musk şəxsi twitter hesabından paylaşdığı cavabda Marsa gediş biletinin qiyməti haqqında bəzi məlumatlar verib. Twitter istifadəçisi Elan Muska Marsa getməyin neçəyə başa gələcəyi haqda sual verib. Musk isə Marsa səfərin 500 min dollar olacağını bildirib. Həmçinin o, vaxt keçdikcə bu qiymətin 100 min dollara qədər düşəcəyini və insanların evlərini sataraq Marsa getmək istəyəcəklərini vurğulayıb.

Marsa getdikdən sonra oranı bəyənməyənlərin dönüş biletinin pulsuz olacağını deyən Musk özünün orada yaşamaq ehtimalının 70 faiz olduğunu bildirib: "Marsda ölmək şansın Yerdə ölmək şansından daha yüksəkdir. Sən bir qutunun içərisində kosmosun dərinliklərinə gedirsən. Sən uğurlu eniş edə bilərsən, lakin enən kimi baza qurmaq üçün davamlı çalışmaq lazımdır. İstirahət üçün vaxt yoxdur". Mask bundan əvvəl bildirib ki, Marsda davamlı həyat növbəti 40-100 il ərzində mümkün ola bilər.

Marsa getmək istəyən insanların ölümə hazır olmalarının vacibliyinə toxunan Masj kosmos radiasiyalarının, günəş partlamalarının, aşağı təzyiqin və dondurucu soyuqların gedənləri çox çətinliyə salacağını da vurğulayıb. Elon Mask bu mövzu ilə bağlı keçən il bir nitq söyləmişdi. Nitqdə aşağıdakı fikirlər yer almışdı: "Bir fəlakətin baş tutma ehtimalı yüksəkdir, bunun qarşısını almanın bir yolu yoxdur. Bu vəziyyət əslində "ölməyə hazırsınızmı?" sualını verməK kimidir. Astronomlar ancaq ölməyə hazır olduqları təqdirdə Marsa getmək üçün yaxşı bir namizəd ola biləcəklər".

**Aya səyahət edən Bill Anders: "Marsa insan göndərmək dəlilikdir"**

Aya səyahət edən ilk üç insandan biri olan Bill Anders Marsa insan göndərmənin "dəli bir fikir" olduğunu deyib. Anders Aya səyahət edən ilk kosmos vasitəsi olan Apollo 8-dəki astronomlardan biridir.

"BBC Radyo 5"ə verdiyi açıqlamada Marsa insan göndərmənin hardasa gülünc olduğunu bildirən Anders xüsusən də maliyyə məsələsinə diqqət çəkir. Amerikanın Beynəlxalq Kosmos və Havaçılıq Dairəsi (NASA), bir yandan Aya yenidən insan göndərməyi, digər tərəfdən də gələcəkdə Marsa insan göndərə bilmənin texnologiyaları üzərində çalışır.

85 yaşındakı Anders Marsa insansız vasitələrin göndərilməsinin böyük bir dəstəkçisi olduğunu, amma ora maliyyəsi çox daha yüksək insan göndərmə məsələsində yetərində ictimai dəstək olmadığını bildirib.

"Bunu məcburi edən nədir? Bizi Marsa getməyə itələyən nədir?" deyə sual edən Anders "Dövlətlərin bu məsələdə o qədər də maraqlı olduğunu düşünmürəm"- deyə, bildirib.

Kəşf robotları isə Marsa araşdırmalarını davam etdirir. Son olaraq NASA-nın "InSight" kosmos vasitəsi bir müddət öncə Marsa eniş edərək, planetdə öz heyətini yerləşdirməyə başlamışdı.

**Frank Borman: "Günəş sistemimizi kəşf etməliyik"**

Apollo 8 missiyasını həyata keçirən Frank Borman isə Marsa insan göndərmə missiyaları məsələsində daha pozitivdir. Frank Borman deyib: "NASA məsələsində Bill qədər tənqidçi deyiləm. Günəş Sistemimizin kəşf edilməsi məsələsində iradəli olmalıyıq və insanlı missiyalar qrupu da bunun bir parçasıdır".

Borman gələcəkdə kosmos turizmi çərçivəsində Marsa özəl turlar təşkil etməyi düşünən SpaceX'in qurucusu Elon Mask və Amazonun rəhbəri Ceff Bezosun xəyalları məsələsində isə daha təmkinlidir: "Mars haqqında həddən artıq şişitmə olduğunu düşündüyüm bir çox yanlış fikirlər var. Mask və Bezos, Marsa koloniya yerləşdirməkdən bəhs edirlər, məncə bu, dəlilikdir".

**"Ölüm riski olsa da, marsa uçacam"**

Amerikalı sahibkar Elon Musk isə yeddi il ərzində Marsa uça biləcəyini deyib. "Axios"a müsahibə verən Musk Marsa getməsi ehtimalının 70% olduğunu deyib. 7 il ərzində belə bir səfərin mümkün olacağını bildirən Musk Mars biletlərinin bir neçə yüz min dollar olacağını söyləyib.

Marsa səfərin ölümcül ola biləcəyini fərq etdiyini bildirən Musk "Marsda ölmək ehtimalınız Dünyada ölmək ehtimalınızdan daha yüksəkdir. Çətin olacaq. Ölüm ehtimalı yüksəkdir, kosmosun dərinliklərinə enmə ehtimalı aşağıdır" ifadələrini dilə gətirib.

**Marsa eniş edər-etməz sürətli bir şəkildə bir baza inşa edilməsi lazım olduğunu bildirən Musk söyləyib:** "Kef üçün vaxt yoxdur. Bunu etdikdən sonra belə çətin bir ətraf mühit olacaq. Bu səbəbdən ölüm ehtimalı yüksək olacaq. Biz geri qayıda biləcəyinizi düşünürük, amma bundan əmin deyilik".

Marsa səyahət üçün keçiriləcək reklam haqqında da danışan Musk bu reklamın Shackleton-ın Antarktida reklamına bənzəməsinin vacibliyini diqqətə çatdırıb.

1914-cü ildə Cənub Qütbünə səfərə çıxan Ernest Shackleton, "The Times"a bir reklam vermiş, reklamda "Aşağı maaş, amansız bir soyuq, tamamilə qaranlıqda uzun aylar, daim təhlükə, qayıtmamaq təhlükəsi və uğur vəziyyətində qazanılacaq şərəf qarşılığında təhlükəli səyahətə çıxacaq adamlar axtarılır" ifadələri qeyd etmişdi.



**Çin marsa ilk missiyasını göndərəcək**

Bu ilin iyulunda isə xəbər verilib ki, Çin 2020-ci ildə Marsa ilk tədqiqat missiyasını göndərməyi planlaşdırır. Artıq alimlər kosmik aparat üzərində bütün işləri bitiriblər. Bu haqda Çinin "Global Times" nəşri yazıb.

5-7 iyul tarixlərində Jiçjao (Şandun əyaləti) şəhərində keçirilmiş peyk və kosmos üzrə konfransda hazırlanmış kosmik aparat haqda məlumat verilib. Sözügedən aparatın əsas vəzifəsi planetdə həyat əlamətləri axtarmaqdan ibarətdir. Həmin aparat Marsda atmosferi, landşaft, geoloji və maqnit xüsusiyyətlərini araşdıracaq.

Bundan başqa missiya zamanı, həmçinin insanın Mars planetinə uyğunlaşıb yaşaya bilməsi potensialı qiymətləndiriləcək.

Amerikanın Milli Aeronavtika və Kosmos İdarəsi (National Aeronautics and Space Administration - NASA) 2020-ci ildə Marsa göndəriləcək pilotsuz uçuş aparatının sınaqlarını əks etdirən videonu yayımlayıb.

Alimlər bir neçə ildir ki, Qırmızı planetin atmosferi şəraitində uça bilən aparatın hazırlanması üzərində çalışırlar. Bir çox mühəndislər bu istiqamətdə hazırladıqları layihələrini təqdim etsələr də, onların əksəriyyəti uğursuzluqla nəticələnib. Lakin kosmik agentlikdə uyğun konstruksiya tapılıb və yeni kvadrokopter sınaqdan keçirilib.

Dron Marsın atmosfer şəraitini təqlid edən kameraya yerləşdirilib. Pilotsuz uçuş aparatı müvəffəqiyyətlə uçub və bir neçə dəqiqə havada qalıb. 2020-ci ildə qurğu növbəti uçuşunu Marsın səthində gerçəkləşdirəcək.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 152 (7322) 20 iyul 2019

## Bunları bilirsinizmi?

* Çox möhkəm asqıranda qabırğalardan biri qırıla bilər
* Asqırmağın qarşısını almaq boyunda damarın zədələnməsinə səbəb ola bilər
* Donuzlar heç vaxt başlarını yuxarı qaldıra bilmir
* Dünya əhalisinin demək olar ki, 50 faizi telefondan istifadə etmir
* 1 saat qulaqlıqdan istifadə qulaqdakı mikrobların sayını 700 faiz artırır
* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var
* Bethoven son əsərini kar halda bəstələyib
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib
* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir
* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür
* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır
* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu
* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığışdırmaq mümkündür
* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyant qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq "Afrika ulduzu"dur
* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil
* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihar cəhdi edirlər.
* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir
* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.
* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.




## 13 yaşlı uşaq iki təyyarə qaçırdı

**Çində 13 yaşlı oğlan oynamaq üçün iki ədəd o qədər də böyük olmayan təyyarə qaçırıb. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Müşahidə kameraları bir yeniyetmənin Tayxa gölü sahilində yerləşən iki kiçikhəcmli təyyarəni avtomobil parkinqinə apardığını qeydə alıb. O, təkcə pilotun kabinəsinə girməyib, eyni zamanda, orda xeyli oynayıb.**

Baş vermiş hadisə zamanı oğlan təyyarənin idarəetməsini itirib və bu zaman təyyarəni divara vurub. Ekskursiya bürosunun əməkdaşları baş vermiş insident barədə ancaq səhər saatlarında xəbər tutublar. Onlardan biri deyib ki, hadisədən bir gün əvvəl hər şeylə maraqlanan bir yeniyetmə təyyarənin təmiri prosesini müşahidə edirmiş. İki saatlıq müşahidə ona bu təyyarəni necə idarə etmək lazım olduğunu öyrənməyə bəs edib.

Oğlan hər şeyi polisə etiraf edib. Ailəsi bilməyib ki, o, gecə evdən qaçıb.

Bu ilin 11 iyununda Amerikanın Minnesot ştatında dörd yaşlı bir oğlan ata-babasının maşınını oğurlayaraq, konfet almağa gedib. O, nəqliyyatın pik saatlarında yaxınlıqdakı yanacaqdoldurma məntəqəsinin ətrafında iki kilometrə yaxın dövrə vurmağa nail olub. Orada onu polislər görüb və saxlayıblar. Amma həmin müddətə qədər balaca oğlan bir neçə poçt qutusuna, qonşunun maşınına və ağacına ziyan vurmağa nail olub.

## Pələng seldən qaçıb, bir ailənin evində 10 saat yatdı

**Hindistanın Assam ştatında seldən qaçarkən yorğun düşən dişi pələng bir evə sığınaraq yataqda gün boyunca yatıb. Heyvanın evə girdiyini görən ailə qorxudan dükanlarına qaçıb.**

92 heyvanın öldüyü Kaziranga Beynəlxalq Parkından qaçdığı təxmin edilən pələng oyandıqdan sonra təbiəti mühafizə təşkilatı və kənd sakinlərinin yardımı ilə meşəyə geri qayıdıb. Hindistanın Təbii Həyatı Qoruma Dərnəyinə görə, pələng ilk olaraq cümə axşamı sabahı Kaziranga Beynəlxalq Parkının 200 metr yaxınlığındakı bir maşın yolunda görünüb. Nəqliyyatdan narahat olan yırtıcı heyvan yaxınlıqdakı qapısı acıq bir evə sığınıb.



Xilasetmə əməliyyatına rəhbərlik edən Rathin Barman adlı işçiyə görə heyvan evə səhər 07.30-da girib və 10 saat yatıb. BBC-yə açıqlama verən Barmana görə, bütün ailə heyvanın evə girdiyini görüncə qorxudan dükanlarına qaçıb.

Pələng yatarkən xilasetmə heyəti ətrafı boşaldaraq onun meşəyə qayıtmasını təmin edib. Maşın yolunda maşınların hərəkəti dayandırılıb və 17.30-da heyvan xüsusi vasitələrlə oyandırılıb.

## Valideynləri vasvası olanlar... allergiya xəstəsi olur



**Türkiyəli alimlər gigiyena dəlisi olan valideynləri düşündürəcək yeni bir araşdırma hazırlayıb. Məlum olub ki, gigiyenik atmosferdə böyüyən uşaqlarda allergiya riski çoxdur.**

Ayaqyolulardakı gigiyena problemindən asılı olaraq bakterial infeksiya riski də böyüyür. Təmizkar ailədə böyüyən uşağın allergiyaya da meylliliyi varsa məktəbdə daha tez xəstəliyə tutula bilər. Bundan başqa, şişman uşaqların da allergiyanı çox ağır keçirdiyi üzə çıxıb.

Uşaqları allergiyaya meylli olan valideynlərin evdə siqaret çəkməməsi tövsiyə olunur. Alimlər bildirir ki, allergiyaya genetik bağlılığı olan və xüsusilə həssas böyüdülən uşaqların Günəş görən sinifdə oxuması məsləhətdir. Bundan başqa, həmin məktəbdə siqaret çəkilməməli və siniflərin havası tez-tez dəyişməlidir.

## Doğduğu uşağı bəyənməyən ana məhkəməyə müraciət etdi

**Süni mayalanma yolu ilə uşaq dünyaya gətirən qadın uşağı bəyənmədiyi üçün məhkəməyə müraciət edib. ABŞ-da yaşayan Cenifer Kramblet adlı qadın süni mayalanma yolu ilə hamilə qalıb. Ağ dərili olan qadın özü kimi ağ dərili, mavi gözlü uşağa sahib olmaq üçün xəstəxanaya müraciət edib. Lakin xəstəxanada qarışıqlıq yarandığı üçün qadın uşağı dünyaya gətirdiyi zaman onun qara dərili olduğunu görüb.**

Anası hazırda 3 yaşı olan qızını çox sevsə də, qızı qara dərili olduğu üçün xəstəxananı məhkəməyə verib. Ana ağdərili insanların əhatəsində yaşadığı üçün qızının gələcəkdə özünü pis hiss etməsindən qorxur. Afro-amerikalı görünüşünə malik olan balaca qızın ailəsi onu ətrafdakı hər kəsdən qorumaq və onu gələcəkdə daha yaxşı yaşatmaq üçün xəstəxanadan təzminat alacağını deyir.

## Rus turistlər tətil vaxtı bir-birini görmək istəmir

**Rus turistlərin 40 faizi xarici ölkələrdə baş tutan tətil zamanı öz həmvətənləri ilə görüşü arzuedilməz sayır. Skyscanner turist servisinin 2.5 min nəfər rus turist arasında keçirdiyi rəy sorğusunun nəticələrinə görə, respondentlərin 40 faizi ümumiyyətlə həmvətənlərinə diqqət göstərmirlər, qalanları isə bu görüşdən məmnundular. 26 faiz bu qarşılaşmadan qeyri-məmnunluğu rusların səyahət etdikləri ölkənin mədəniyyət və adət-ənənəsinə hörmətsizlikləri ilə izah ediblər. Daha 23 faiz isə qeyd edib ki, rusların ətrafdakılara münasibəti alçaldıcı olur, 17 faiz rusların alkoqollu içkilərdən çox istifadə etməsini əsas gətirib. Rəyi soruşulanların 23 faizi isə bu görüşdən məmnun olur. Onlar hesab edir ki, həmvətənlərlə şən vaxt keçirmək daha məqsədəuyğundur. 44 faiz respondent isə iddia edib ki, ruslar tətil zamanı özlərini digər millətlərdən olan turistlərdən daha pis aparır.**



Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.